AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI

AZƏRBAYCAN TARİXİ MƏNBƏLƏRİ

NİZAMƏDDİN ŞAMİ

# ZƏFƏR-NAMƏ

*(Azərbaycanın və qonşu ölkələrin tarixinə dair iqtibaslar)*

Türk dilindən tərcümə edəni akademik **Z. M. Bünyadov**

www.preslib.az
PREZİDENT KİTABXANASI

**Bakı — Elm — 1992**

Tərcümənin redaktoru

**Ə. NOVRUZLU**

**Nizaməddin Şami.**
Zəfər-namə. — Bakı: Elm, 1992. — 40 s.
ISBN 5—8066—0516—7

Nizaməddin Şaminin oxuculara bu vaxtadək tanış olmayan bu yazılı mənbəsi Teymurləngin dövrünə aid tarixi əsərdir. Teymuru səfərlərdə müşayiət edən Nizaməddin gürcülərin əlindən Berd qalasının alınmasının şahidi olur, sonra isə Beyləqanda arx çəkilməsi münasibətilə maddi tarix (xronoqram) tərtib edir. 1393-cü ildən sonra on illik ərzində baş verən hadisələr müəllifin şəxsi müşahidələrinə əsasən şərh olunur.

Kitabı nəşrə akademik Z. M. Bünyadov hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

Ş 0503020907—274 6-92
655(07)—92

© “Elm” nəşriyyatı, 1992

# MÜNDƏRİCAT

Ön söz

Zəfər-namə

Əmir Teymurun Dərbənd yolundan Dəşt-i Qıpçağa getməsi

Əmir Teymurun əmirzadə Əmiranşahı və əmirzadə Məhəmməd Sultanı Çərkəz tərəfə göndərməsi

Əmirin Hindistandan döndükdən sonra İraq və Azərbaycana getməsi

Əmir Teymurun Bağdaddan dönməsi və Təbriz tərəfə getməsi

Əmirin Qarabağda qışlaqda qalması

Əmirin Gürcüstan tərəfə getməsi

Gürcülərin böyük qalalarından olan Berd qalasının fəthi

Əmir Teymurun ermənilərə qarşı qazavat edib Abxaz tərəfə getməsi

Beyləqan şəhərinin tikilməsi və xəndəyin qazılması

Əmirzadə Ömərin Səmərqənddən Azərbaycan tərəfə gəlməsi və bunun səbəbləri

Beyləqan çayının (arxın) açılması

Əmir Teymurun Qarabağ-i Arrana gəlməsi və orada eyş-ü işrətlə vaxt keçirməsi

Şərhlər və qeydlər

## Ön söz

Xalqımızın tarixinin səhifələrindən birini də açan və oxucularımıza hələ ki, tanış olmayan yazılı mənbələrdən biri də Nizaməddin Şami[1] və ya Şənbi və ya Şənb-i Qazaninin[2] Teymurləngin dövrünə aid «Zəfər-namə»sidir. Nizaməddin Təbrizdə anadan olub[3] və Teymur Bağdadı alan ildə (1393) burada yaşayırdı. Əsir alınıb Teymura and içib onun xidmətinə keçib. 1401 — 1402-ci illərdə Teymur ona rəsmi salnaməsinə əsaslanan sadədilli bir tarixi yazmağı tapşırdı. Nizaməddin Teymuru səfərlərində müşayiət edir, 1403-cü ilin avqustunda gürcülərin Berd qalasını almasının şahidi olur, bir az sonra Beyləqanda arx çəkdirməsi münasibətilə maddi tarix (xronoqram) tərtib edir. Əsərin son səhifəsinədək, yəni 1393-cü ildən sonra keçən onillikdə baş verən hadisələr müəllifin şəxsi müşahidələrinə isnadlardır, çünki 1404-cü il aprelin 12-də o, Teymurun ordugahında moizəni özü oxumuşdu. Əsərini Səmərqəndə yola düşən Teymura təqdim edərək Nizaməddin vətəninə (ola bilsin Təbrizə) qayıtmaq istəyirdi. 1411 — 1412-ci illərdə Hafizi Əbru Nizaməddin haqqında danışarkən ondan ölmüş şəxs kimi söhbət edir. Daniş-Pəjuhun fikri ilə razılaşsaq[4], onda Nizaməddin 1409-cu ildən qabaq vəfat edib.[5]

Teymurləng dövrünün Azərbaycan tarixinə aid iqtibaslar 1987-ci ildə Türk Tarixi Qurumunun nəşr etdiyi Necati Luqalun tərcüməsindən götürülmüşdür.[6]

## ZƏFƏR-NAMƏ

(s. 11) Bu kitabın yazılmasının səbəbi Həzrət-i Əmir Teymurun səkkiz yüz dördüncü ildə (11.VIII.1401-31.VII.1402) Nizam-i Şami bəndəsinə əmr etməsidir. Ətəyini öpmək şərəfiylə fəxr olduğumdan, bu quluna qarşı lütf və ikram və ənamda olduqdan sonra özünün və əbədi olan bu dövlətin qurulduğu zamandan bu günə qədər hökm sürən hökmdarların gördükləri işlərin tarixi yazılmış, (s. 12) lakin layiqincə tərtib edilməmiş olduğundan bunun doğrultdurması, tərtibi, düzənlənməsi və bölmələrə ayrılması ilə məşğul olmağımı işarə buyurdular. Və bunun söz oyunlarından və ləfz sənətlərindən hali olmasını da şərt qoydular; çünki bu tərzdə yazılan bir kitab bir para təşbehlər və bənzətmələrlə dolu olarsa, arada məqsəd qeyb olar. Belə yazılmış bir kitabı yalnız sözü anlayan kimsə başa düşər, lakin on nəfər başa düşən yerləri yüz nəfər məqsədi anlamaqdan aciz qalar. Bunun üçün belə bir kitabın faydası ümumi və tam deyildir. Buna görə mən yeri öpərək Əmirə bunları ərz etdim: «Hər nə qədər sözün mərtəbələri çox və dərəcələri hesabsızsa da, əbədi olan bu dövlətin dövründə bu bəndənin söz fəndlərində bir az qüdrəti və anlayışı yanında şöhrəti vardır, lakin alimlər məqbul olan söz haqqında «səlis və gözəl söz odur ki, xalq onu anlar və münəvvərlər də onu bəgənməməzlik etməzlər»,— deyirlər. Buna görə də: Avamın anladığı və havasın bəyəndiyi sözü bu qulundan başqa kimsə söyləməz,— demişlər.

Bundan sonra sahibqıran Əmir[7] «Elə mən belə söz istəyirəm»—dedi. Mən də dua mərasimini ifa etdikdən sonra, «Fərman buyrulursa, qulunuz da bu üslub üzərinə yazar və əlimdən gəlirsə onu görməkdə qüsur etmərəm və onu ömrümün bir şərəfi sayaram»,—dedim. Bunun üzərinə qeyrət kəmərini can belinə bağlayaraq başqa məşğələlərimi bir tərəfə atıb işə başladım və sahibqıran Əmir həzrətlərinin gözəl çalışmaları və hər kəs tərəfindən bəyənilən rəhmət və himmətləri, parlaq rəyləri, təsirli tədbirlərinin tarixini yazdım. Ta ki, bu kitab dünyanın bütün hökmdarları və bəşər oğullarının ağıllıları, xüsusiylə Əmir həzrətlərinin oğulları və qutlu nəsli üçün həyatlarında və səltənət işlərində yeganə bir ağıl hikmək düsturu və hər zaman özlərinə müraciətgah ola biləcək bir (s. 13) nəsihət kitabı və onlara bir rəhbər və ustad olsun və məmləkət fəthində, seyri-səfər və ölkələr ələ keçirmədə, əhalinin rifah və səadətinin təminində, dil və dövlət işlərinin və mülk və millətin qayda-qanunlarını tənzim və düzənlənməsində ona uysunlar, o həzrətin sözlərini və işlərini özlərinin mürşidi və öz işlərinin güclərinin tədbirçisi etsinlər. Bu kitab sayəsində hər hansı bir əmir, vəzir nəsihətə və işarətçinin məşvərətinə ağıl və tədbirlərinə baş vurmaya lüzum görməsin. Qüvvətlə ümid olunur ki, bu kitabın faydaları yer üzündə sabit olsun. Cahan durduqca Həzrəti Əmirin zikri, zamanın üzündə, gecə və gündüzün səhifələri üzərində sabit qalsın, onun məhəbbət və mətinliyinin şöhrəti doğu və batıya yayılsın.

(s. 116) Türklərin Siçan ilinə təsadüf edən yeddi yüz səksən altıncı ildə (1384) Əmir Teymur seçmə süvarilərlə Reyə gəlib qışı orada keçirdi. Bu zamanda Sultan Əhməd[8] Sultaniyədə[9] idi. Əmir Teymurun gəlməsini bilib Sultaniyə qalasını möhkəmlədib, güvəndiyi adamlardan bir camaatla, oğlu Ak Buğanı orada qoydu, özü Bağdada getdi. Əmirin ordusu Sultaniyəyə yaxınlaşdıqda qalada olanlar bu daşqın selə, bu kükrəmiş aslana müqavimətin ağıllı iş olmadığını anladılar. Ehtiyatı əldən buraxmamaq istədilər, işin axırını düşündükləri üçün Ak Buğanı götürüb oradan Təbrizə getdilər. (s. 117) Bundan sonra Əmir Teymur Sultaniyəyə gələrək şəhəri və qalanı zəbt etdi. Sultan Əhmədin adamlarından olan Sarı Adil qaçıb Şiraza getmişdi. Əmir onu gətirtdi. O, yeri öpməyə gəldiyi zaman Əmir ona *suyurqallar*[10] verdi və ənamlarda oldu, Sultaniyə və Təbrizi ona verdi.[11] Sultanşahın oğlu Məhəmmədi[12] onunla bərabər orada qoyaraq, özü atına minib Rustamdar deyilən yerə[13] gəldi. Buranın sahibləri qaçıb getmişdilər. Vilayətin əsgərləri buraları yağma etdilər, bu tərəfdən Vəli[14] Çalusdan qaçmışdı.

**Beyt -** *Düşmənlərin, döyüş vaxtı sənin şimşək kimi qılıncını gördükdə, kimi doğuya, kimi batıya qaçır.*

Əmir Teymur vilayəti zəbt etmək üçün Amol və Sariyə[15] getdi. Bu arada Seyyid Kamaləddin və Seyyid Raziəddin[16] yeri öpməyə gəldilər, itaət və boyun əymə məqamında başlarını bəndəlik eşiyinə qoydular, onun adına pul zərb etdilər və xütbələr oxutdular. Əmir Teymur oradan öz məmləkətinə qayıdaraq əsgərləri tərxis etdi. Əsgərlər evlərinə getdilər, özü isə yaz mövsümünü Səmərqənddə zövq və səfa ilə keçirdi, qışını da izzət və iqbal ilə Ağsarayda[17] yaşadı.

Bu arada padşah Toxtamış[18] münasibətsiz bir hərəkətə keçdi. Əksəriyyəti kafir olmaq üzrə doqquz tümənə yaxın əsgər topladı, Təbrizə göz dikərək qış mövsümündə gəlib məmləkətin ətrafını əlinə keçirdi. Təbiidir ki, belə bir zamanda şəhərin rəisi laqeyd qalmadı, əhalini mühafizə üçün şəhərin ətrafını möhkəmlətdi, hamı müharibəyə hazırlandı. Bir həftəyə qədər belə keçirdilər, boğazı kəsilmiş bir quş kimi bilaixtiyar boğazlanmış vəziyyətdə qaldılar. Nəhayət, düşmənlər hiylə ilə qalib gələrək şəhəri zəbt və yağma etdilər. Məscidləri, mədrəsələri sökdülər, gənci, qocanı bağlayıb əsir aldılar, illərdən bəri bu məmləkətdə toplanmış olan mal, nəfis şeylər və ərzaqdan hər nə tapdılarsa yağma etdilər. On gün içində bunlardan heç bir əsər qoymadılar, qışda silah və sairədən yağma etdiklərini yığıb yenə gəldilər.

Təbriz Əmir Teymurun məmləkətlərindən (s. 118) olduğundan, oranın füqərası onun lütf və inayətinə sığınmış olduğundan bu xəbər ona çox ağır gəldi, müsəlmanlara edilən bu zülm və haqsızlıqdan mütəəssir olub iyrəndi.

İrəlidə zikr ediləcəyi kimi, Əmir Teymur bunların gördükləri fəallıqların cəzasını vermişdir, bu zülm və haqsızlıqlarının əvəzini aldı.

**Nəzm -** *Sən İran şahlarından, əli altında olanlara zülm altında olanlara zülm edənlərin aqibətini eşitdin mi? Bu səltənət, bu şövkət qalmadığı kimi, füqəraya edilən zülm də gəlib keçmiş, yalnız o zalimlərdən fəna bir ad qalmışdır.*

İslamın qübbəsi olan Təbriz bir müddət xaraba və viran bir halda qaldıqdan sonra nəhayət Əmir Teymurun yasaq və ədalətiylə yenə bərpa olundu, onun ədaləti və insafı sayəsində sakinləri yenə yerlərinə və yurdlarına qovuşdular, xoşca yaşadılar.

(s. 119) Türklərin Bars ilinə təsadüf edən yeddi yüz səksən səkkizinci ildə (1386) xəbərçilər Sultan Əhmədin bir ordu ilə Bağdaddan hərəkətlə Təbriz üzərinə yürüdüyünü bildirdilər. Əmir bunu eşitdiyi gün ağır yükləri qoyub atına minib Təbrizə doğru yollandı. Əmirin ordusunun Təbrizə gəlməkdə olduğunu eşidən Sultan Əhməd bir həftədən çox durmayıb Naxçıvan və Kürdüstan yolundan yenə Bağdada qaçdı.

(s. 120) Əmir Teymur o yazı Təbriz və ətrafında keçirdikdən sonra Naxçıvan yolundan yola düşüb Qərbi qalasına gəldi. Buranı müharibəyə girişərək zəbt etdi. Buranın başçısı olan Şeyx Həsəni tutub Əmirin yanına gətirdilər. Bundan sonra Sürməri qalasına[19] gələrək, onu müharibə ilə zəbt edib yıxdıqdan sonra bu qövmin böyüyü olan Tutan adındakı türkməni tutdular. Bundan sonra oradan köçüb Qars qala və içqalasına gəlib bunun da ətrafını ələ keçirdilər. Qars qalası çox möhkəm və mətin idi, onun valisi olan Firuzbaxt çox ağır döyüşə girişdisə də, nəhayət itaət edərək Əmirin yanına gəldi. Əmir onu təltif ilə ənam və ehsanda olduqdan sonra oradan da köçüb Ağ Buğra adlı yerə gəldi. Qar və yağış mövsümü idi. Soyuqlar son dərəcə şiddətli idi. Buna görə Tiflis tərəfə yollandı. Bu şəhər gürcü məmləkətlərinə daxil olduğu halda, zamanın qarışıq olmasından və o diyarın sultanlarının laqeydliyindən bu qövmin (gürcülərin) əlinə düşmüşdü.

Əmir Teymur əmirlər və dövlət ərkanına xitabən: «Bu hal mənə çox əcaib və qərib gəlir. Zamanın hadisələriylə bu hərcmərclik zühur etmiş, hər şey nizamından çıxmış padşahlığın mərasimi ortadan qalxmış. Lakin bununla bərabər bunda da bir qəriblik yoxdur, çünki o möhtərəm padşahlar yer üzündə qalmayınca əlbəttə hər şey cığırından çıxır, hökumət işləri də alt-üst olur. Lakin mən keçmiş padşahlar və məliklərin əməl və hərəkətlərinə heyrət edirəm. Əllərində bu qədər qüdrət və qüvvət olduğu halda islam dininə müxalif olan gürcü tayfasına məmləkətin ortasında səltənət iddiasında olmaq dərəcədə qüdrət və səlahiyyət vermişlər. Əgər sizin zənn etdiyiniz kimi, onların padşahlıq qeyrəti və hökmdarlıq əzəməti bu tayfanı tamamilə yer üzündən qaldırmağa səbəb olmadısa, o halda (s. 121) müsəlmanlıq, dindarlıq harada qaldı? Bütlərə sitayiş edənlər belə batil olan dinlərinin qaydalarına riayət edirlər, onların Allahları bütlər olduğu və bu bütlər özlərinə köməkdən aciz olduğu halda, yenə öz dinlərinin əleyhinə olanları qəhər və zəlil etmək üçün çalışırlar. Bir camaat ki, islam dininə mənsubdur və Tanrının özlərinə yardım edəcəyinə dair olan vədinə inanırlar, o halda onlar bu kafirləri nə üçün səltənət və hökmdarlıqda saxladılar? Onlardan gələn cüzi bir mənfəət üçün nə üçün belə bir hərəkətdə oldular? İndi, əyalət və hökmdarlıq Tanrının fəzl və kəramətiylə bizə keçmişdir. Hər halda onları əsasından məhv etmək və islam aləmini onların alçaqlığından qurtarmaq və bu hərəkəti Tanrının lütfünə nail olmaq üçün bir vəsilə bilmək bizim üçün lazım və vacibdir!»— dedi.

Xülasə, Əmir Teymur bunları ortadan qaldırmağa əzmi ilə müharibəyə başlayaraq qalalarını ələ keçirdi, bir çoxlarını öldürdü, axırda da onların işlərinə baxan vali Baqrat[20] Əmir Teymurun yanına gəldi. Əmir onu bağladı, sonra yola düşdü. Tiflisdən keçərkən o səhralarda ovlanmaq istədi, yolda səfər vaxtı bir çox qalalar və möhkəm yerləri ələ keçirdi ki, bunların zikri uzun sürər. Əmir Teymur Cahanşah Bahadura və digər əmirlərindən bəzilərinə gürcü əsgərlərinin yağma edilməsini əmr etdi. Əmirzadə Məhəmməd Dərvişi Şəkidə düşmənlərin dəfi üçün sərdar təyin edib yola salmaqla bərabər Ərqunşahı və Ramazan Xocanı Tanquta[21] və əmir Məhəmməd bəyi Ağcəb[22] vilayətinə göndərdi. Digər əsgərlər Elbrus dağının ətəklərinə getdilər, qarət edərək çoxlu qənimət əldə etdilər və harada bir qala gördülərsə yıxdıqdan sonra köçüb kiçik Qarabağa gəlib girdilər. Kür çayı üzərindən gəmi ilə keçdilər. Əmir Teymur buradan hərəkət edib Qaytaq[23] əhalisi və vilayətini və Qızıl qalanı[24] zəbt etmək üçün yola çıxdı.

Tiflisli Baqratı həbs etmişlərdi, özünü bu vəziyyətdə Qarabağa göndərdilər. Əmir Teymur çox dindar və etiqadlı olduğundan Baqratı yanına çağıraraq müşfiqanə nəsihətlərlə onu islam dininə dəvətlə gözəl vədlərdə oldu və ona: «Bu dinə sadiq olsan (s. 122) müsəlman qardaşlar sırasına girərsən, *cizyə*[25] vermək, zillət və həqarətdən xilas olarsan, islam izzəti ilə əziz olarsan»—dedi. Əmirin sırf doğruluq və təmizliklə dolu olan qəlbindən çıxan bu səmimi nəsihətlərin təsiriylə: **Misra** - *Candan gələn bir sözdən qəlbdə yer alması həqiqidir* — sözlərini eşidən Baqratın qəlbindəki dələlət zail olaraq özünə iman dünyasına yol açdı və bu cəhətdən Əmirin xüsusi lütf və ehsanına layiq oldu. Əmir bunun haqqında o qədər məhəbbət və iltifat göstərdi ki, bunu görən Baqratın qohum və qəbiləsindən və vilayət əhalisindən bir çoxu da iman nuru ilə münəvvər olub müsəlman oldular.[26] Əmir Teymur Baqratın idarəsində olan məmləkətlərə yanaşı olan yerləri əlavə ilə özünə verdi.

Yenə o yerlərdə şan və şərəfi, şöhrəti, xanədanının qədimliyi və gözəl əxlaqıyla başqa məşhur əmirlər arasında müstəsna bir mövqeyi olan Şirvanat məliki Şeyx İbrahim[27] də yeri öpməyə gələrək belə bir məlikdən belə bir Əmirə ərz edilməsi lazım gələn hörmət və təzimi ifa etdi.

Başqa vilayətlərin əhalisi də hamılıqla Elbrus dağına qədər gəlib itaət və bağlılıq göstərdilər, Şabran və Şamaxı vilayəti də itaət altına girdi. Gilan məlikləri ki illərdən, bəlkə əsrlərdən bəri heç kimsəyə boyun əyməmişlər, onlar da gəlib müti oldular, mal göndərdilər, xərac verməyi qəbul edib aman istədilər.[28]

Əmir həzrətləri də onlara aman verdi, kəsirlərini əfv etdi, özlərinə *suyurqal* və xələt verdi. Malları mühafizə üçün geri qalmış olan Şeyx Əli Bahadur,[29] Ərdəbildən Qarabağa gələrək yeri öpməklə müşərrəf oldu.

Qışı orada keçirdilər.

Bu arada padşah Toxtamışın düşmən vəziyyətini alaraq ordusunu Dərbənd tərəfindən Samur çayına göndərdiyini xəbər verdilər.[30] Bunun üzərinə Əmir Teymur ordunun tümənləriylə bərabər Şeyx Əli Bahadur, İğu Teymur, Osman Abbasın buna qarşı hərəkət etmələrini əmr buyurdu və onlara: «Bizim padşah Toxtamışla əhd və peymanımız vardır. Biz (s. 123) o əhd-i peymanı saxlayırıq. Əgər bu onun ordusudursa, müharibə etməyiniz, geri dönünüz»—dedi və bunların arxasından əmirzadə-yi ə'zəm Əmiranşahı[31] da göndərdi. Bunlar getdilər, ordunun uzaqdan gördükləri vaxt kimin ordusu olduğunu soruşdular. Onlar da padşah Toxtamışın ordusu olduğunu və Əmir Teymurun ordusundan xəbər almaq üçün özlərini göndərdiyini söylədilər. Bunlar da Əmirin əmr-ü fərmanı üzərinə müharibə etməyərək qayıtdılar.

Düşmənlər bunların döndüklərini görüb bunu özlərinin aciz olmalarını hesab etdilər. Arxalarından gedərək yetişib hücum ilə ox yağışına tutdular. Əmir və bahadurları bunu görüncə geri dönərək döyüşə başladılar. Hər iki tərəfdən qırx adama yaxın əsgər öldü. Bu arada əmirzadə Əmiranşah da gələrək bir həmlə ilə düşməni püskürtdü, bir çoxunu öldürdü və birdən düşmənin ətrafını əhatə edərək böyük döyüşə başladılar.

Düşmənlər qaçaraq Dərbəndə girdilər. Bunlardan qaça bilməyənlərin bir çoxunu sağ olaraq yaxalayıb Əmirə göndərdilər. Əmir bunlara bir şey etmədi, *suyurqal* verilməsini əmr edərək, padşah Toxtamışdan soruşdu: «Bizim aramızdakı hüquq ata-oğul arasındakı hüquq kimidir. Bir neçə cahil adamın üzündən arada nə üçün bu qədər insan həlak olsun? Biz köhnə əhd-i peymanımız üzərində qalmalıyıq. Yatmış bir fitnəni oyandırmayaq, çünki Həzrəti Peyğəmbər: «əl-fitnə naminə, lə'n Allah mən aykazaha»—buyurmuşdur, yəni fitnə yatmış bir insana bənzər, onu oyandırmasan o, oyanmaz. Onu oyandıran kimsəyə Allahın lənəti olsun. Əgər bir kimsə onun xilafına hərəkət etməyə, yaxud onun xilafını müvafiq bir şəkildə göstərməyə qalxsa, biz hər ikimiz onu tutub cəzasını verməliyik, ta ki başqalarına ibrət olsun»—dedi.

Buna görə o əsirlərin hamısına qızıl, paltar və xələt verdikdən sonra bir rəhbər təyin edib ordudan ayırdı və məmləkətlərinə göndərdi.

Əmirzadə-yi cahan Əmiranşah Kür çayından keçərək salamatla Əmir Teymurla birləşdi.

Əmir Teymur Gökçə Dəniz dəryası tərəfindən yola çıxdı. Əmirzadə Şahrux Bahadur[32] Səmərqənddən Bağdada gedirdi. Əmir Teymur onun gəlməyini xəbərini alıb hər şeyini ataraq, onu (s. 124) qarşılamağa gedərək, Mərənd deyilən yerdə onunla görüşdü. Bundan sonra oradan hərəkətlə Əlincə qalasına gəldilər. Əmir orada üç gün qaldıqdan sonra, ordusunun dağın üstünə çıxıb müharibəyə başlaması üçün əmr verdi. Müharibə başlandı. Əmirin əsgərləri qalanın suyığanını yıxdılar. Qaladakılar susuzluqdan ölüm dərəcəsinə gələrək aciz və çarəsiz bir halda gəlib aman istədilər. Əmir Teymur onlara aman verərək dağdan aşağı enmələrini əmr etdi. Bu əsnada elə bərk yağış başladı ki, quyular və sərniclər doldu. Düşmənlər bu su ilə ehtiyaclarını dəf etdikdən sonra sözlərində durmayıb müxalifətə başladılar.

Əmir Teymur qalanın mühasirəsi üçün Mirka Məhəmmədi və Ucqara Bahaduru təyin etdikdən sonra özü yükləri olan yerə getdi.

(s. 125) Van qalasını aldıqdan sonra Əmir Teymurun əsgərləri köçüb Xoy və Salmas tərəfə gəldilər. Əmir Kürdüstan vilayətini Məlik İzzəddinə verdi və oradan köçdü. Bu arada Urmu vilayəti hakimi Dizək hüzurda yeri öpməyə gələrək xüsusi iltifatlara nail oldu. Urmu vilayətini Əmir ona ehsan etdi. Əmir həzrətləri yenə köç (s. 126) ilə Marağadan çıxıb Nilana[33] gəldi və bir neçə gün burada qaldı və Reyə yollandı.

(s. 191) Yeddi yüz doxsan altıncı ilin zülqədə ayında (1394-cü ilin sentyabrı) Əmir Teymur bütün Gürcüstan vilayətlərini əlinə keçirdi. Qara Kalqanda[34] çox müxalifət vardı, onların üzərinə gedərək hamısını qəhr və pərişan etdi və orada bir məclis quraraq eyş-ü işrətlə vaxt keçirdikdən sonra yenə köç edib Tiflis şəhərinə və oradan hərəkətlə yolda yenə ovlanmaq surətiylə Şəki vilayətinə gəldi. Vilayət əhalisini itaət altına almaq üçün əsgərləri irəli sürərək yola çıxmalarını əmr buyurdu. Əmir Hacı Seyfəddin, Cahanşah Bahadur və digər əmirlər fərmana tabe olub yola çıxdılar. Vilayəti itaət altına aldılar, itaət etməyənləri yağma etdilər. Şeyx Nurəddin Bahadur bir ordu ilə dağlar tərəfinə getməyə qərarlaşdı. Seyyid Əli[35] mal və mülkündən keçərək qaçmaq yolunu tutdu. Onun vilayətlərini xaraba və viran etdilər və əsgərlər bu vəzifəni yerinə yetirdikdən sonra Əmir Teymurun yanına getdilər.

Bu vaxt padşah (s. 192) Toxtamış tərəfindən bir adam gələrək əsgərlərinin Dərbəndə çatıb gəldiklərini bildirdi. Əmir Teymur atına minərək bunun üzərinə yola çıxdı. Düşmən əsgərləri bundan xəbərdar olduqları vaxt müqaviməti müvafiq görməyərək dərhal döndülər. Onların qayıtmağı müəyyən olduqda Əmir Teymur Kür çayının kənarından yola çıxaraq bir qışlaq axtarmasını əmr etdi. Mahmudabada[36] yaxınlaşanda Saray Məlik Xanımı[37] və ağaları istədi, onlar da əmri üzrə gəldilər. Bir-birinə qovuşduqlarından məsrur oldular və qışı zövq-

ü səfa ilə keçirdilər. Bahar gəldikdə yükləri Sultaniyəyə göndərdilər. Bundan sonra Əmir padşah Toxtamış tərəfə getməyi əmr etdi.

## Əmir Teymurun Dərbənd yolundan Dəşt-i Qıpçağa getməsi

Padşah Toxtamışın bir neçə dəfə münasib olmayan hərəkətləri olmuşdu. Əmir Teymur bunların şərlərini dəf etməyə çalışdı, zəhmət sərf etdi və əvvəlcə Şəmsəddin Almalıqı elçiliyə göndərdi. Bu zat çox ağıllı, alim və təcrübə görmüş bir adamdı. Dadlı bir neçə sözlər və kəlmələrlə məqsədi anlatdı və bu adamın sözləri padşah Toxtamışa və əmirlərə çox münasib oldu. Bu təsirlə padşah sülh və səmimiyyətə meyl edərək onu təltif ilə geri göndərdi.[38] Şəmsəddinin qayıtdığı vaxt Əmir Teymur Samur çayının kənarına gəlmişdi. Çaydan beş fərsah[39] qədər uzaq olan Elbrus dağının kənarında ordusunu hazırladı, safları elə mükəmməl və müntəzəm bir tərzdə düzdü ki, əsrlərdən bəri misli görünməmişdi.

Bu arada Toxtamış xan Ortaq (s. 193) adında bir elçi göndərdi. Bu elçi yaxınlaşdığı zaman əmirin əsgərlərinin çoxluğu gözünü doldurdu və dərhal qayıdaraq, Əmir Teymurun böyük bir ordu ilə gəlməkdə olduğunu Toxtamış xana söylədi. Buna görə Toxtamış xan əmir Qazançını qabaqçı *(monkulay)* edərək mükəmməl bir ordu ilə göndərdi. Bunlar Koysu çayın sahilinə gəldilər. Əmir Teymurun ordusu Tarkiyə[40] gələrək orada dayandı. Özü atına minərək seçmə bir dəstə əsgərlərlə gecə hücuma keçib səhər tezdən Qazançıya çatdı və yanında olan əsgərlərlə onu geriyə çəkilməyə məcbur etdi. Əsgərlərindən o qədər öldürdü ki, səhra və çöllər qana boyandı. Qazançı bu həmlə və şücaəti gördükdə min cür hiylə ilə döyüş meydanından canını xilas etmək üçün qaçmaq yolunu tutdu. Əmir Teymur təqib edilməsini əmr edərək, xalqdan və əsgərlərdən hədsiz-hesabsız adam öldürdülər. Oradan qalxaraq Sulak çayının kənarına gəldilər. Toxtamış xan çayın o biri sahilinə gələrək orada durdu, əsgərlərinə ön sipərlər və hasarlar qoymaqlarını, özlərini qorumaqlarını əmr etdi.

Əmir Teymur mağara və boru çalaraq döyüşə başladı. Toxtamış xan bu halı gördükdə artıq dayanmağı müvafiq bilməyib ağır yükləri və bütün şeylərini atıb qaçdı. Əmir Teymur təqiblə Terek çayını keçdi. Toxtamış Küre çayın[41] kənarına gələrək orada dayandı, əsgərlərini topladı. Əmir Teymur təkrar Terek çayının sahilinə çıxaraq Almak[42] tərəfinə getdi, orada əsgərlərə yeyəcək verdi, onları yeni bir tərtibə qoydu.

Bu arada xəbər gəldi ki, Toxtamış xan təkrar əsgərlərini tənzim edib Terek çayının sahili ilə gəlməkdədir və bu dəfə döyüşə qəti surətdə hazırdır. Buna görə Əmir Teymur dönərək onu qarşıladı, sağ qol və sol qolu nizama salaraq önçüləri irəli sürdü, ertəsi gün düşmən əsgərlərinə yetişərək dayandılar. Hər iki tərəf o gecəni keçirdilər. Səhər tezdən Əmir Teymur ordunun saflarını tərtib edib, bir qolu özünə və bir qolu Əmirzadə Məhəmməd Sultan Bahadura[43] ayırdı. Özü ordudan iyirmi bir qoşun seçərək uzaqdan döyüşün gedişatına nəzər etdi.

Bu vaxt bir adam gələrək: «Əmirə sözüm var»—dedi. Bunu Əmirin hüzuruna gətirəndə: «Mən düşmən ordusunun sağ qolu (s. 194) tərəfindən gəlirəm: Könçə Oğlan, Bəy Yarıq, Aqtav, Sofi Davud və Ödürkü bir qərara gəldilər ki, sizin sağ qolunuza hücum edəcəklər. Vəziyyət budur»—dedi. Buna görə Əmir Teymur dərhal onların tərəfinə gedib yolları kəsdi, bir qədər də qoşun ayıraraq onlara təkrar göndərdi. Düşmənlər Əmirin ordusunun intizam, şövkət və qüdrətini görüb qəlblərinə qorxu düşdü. Hücumdan əvvəl hamısı qaçdılar, Əmirin ayırdığı iyirmi bir qoşundan əlli nəfər təqib edərək onları öz qoluna sürdürdü. Əsgər qaçaraq öz qollarına çatdıqları vaxt bir dəfə də yığışaraq hamısı birdən hücum etdilər. O əlli nəfəri ortaya alaraq qaçmağa məcbur etdilər, bunlardan bəzilərini öldürdülər və düşmənlər bu cəhətdən bir az cəsarətli olub irəlilədilər. Hətta Əmirin əsgərləri üzərinə hücum etdilər və Əmirin yanına qədər gəldilər. Əmir Şeyx Nurəddin[44] canını təhlükəyə qoyaraq düşmənlərin üzərinə hücum etdi, onların qılınc zərbələrindən heç üzünü döndərmədi, atından endi, əsgərlər də ona baxıb atlarından endilər, Tanrıya təvəkkül ilə ox ataraq düşməni qorxutdular. Onun arxasınca Kiçka yolu[45] ilə Allahdad[46] yetişdi və qoşunlar atlarından endilər və... xanzadələrin qoşunu ilə onların sol qoluna hücum edib çox şiddətli döyüşə girişdilər.

Onlar bu halda ikən, Əmir Teymur ordusunun böyük qolu və mərkəzi gürgü, nəfir, nağara və boru çalaraq tam bir şövkət və əzəmətlə gəldi. Dünyada qiyamət qopdu. Elə bu vaxt Üstüva[47] qoşunu yetişdi. O qüdrət və əzəmətlə hər iki tərəf böyük bir müharibəyə girişdilər. Hər nə qədər düşmən əsgəri hücumda oldusa da, Əmirin əsgərləri çox ox ataraq, yerlərini mühafizə etdilər. O qədər adam qətl edildi ki, o səhrada qan dərələri peyda oldu. Bu vaxt əmirzadə Məhəmməd Sultan şücaət və igidliyini göstərdi, heç durmadan həmləyə keçdi və onun arxasından qoşunu da gələrək sol qol tərəfindən hücum etdi. Onun qorxusundan düşmənlər geri dönərək qaçdılar. Əmir Teymur daima canından əziz, ruhundan daha möhtərəm tutduğu bu oğluna (nəvəsinə) qarşı, onu bu müharibədə göstərdiyi şücaətdən dolayı, məhəbbəti bir qat daha artdı.

Toxtamış xan və Dəşt-i Qıpçaq şahzadələri, əmirlər və noyanlarla (s. 195) bərabər qaçmaq yolunu tutdular.[48]

...Ordu düşmənlər üzərində qələbə çaldıqdan sonra Əmir Teymur yola çıxdı, Toxtamış xanı təqib üçün hazırlandı. Türklərin Turatur dedikləri İtil (Volqa) çayını keçərək Ögek vilayətində düşmənə çatdı. Yolda düşmənlərdən çox öldürdü, əhalisini dəniz kənarına sürdü. Bunlar bir tərəflərində dəniz, o biri tərəflərində qılınc

olduğu halda iki bəla arasında qaldılar. Əmir düşmənlərin vilayətlərinin bir çoxunu aldı, düşmənlərin bəziləri özlərini suya atdılar. Toxtamış xan bir neçə nəfərlə qaçıb bir meşədə gizlənib onların pəncəsindən xilas oldu. Əmirin ordusu o vilayəti qarət edərək həddindən çox mal ələ keçirdi. (s. 196) Saray, Urus, Urusçuğu tamamilə əllərinə keçirdilər, at, qatır, öküz, qoyun və hər nə varsa hamısını qarət edib, hədsiz-hesabsız qənimət aldılar və çox gözəl qadınlar və qızlar əsir etdilər.

Əmir Teymur Urusun[49] şəhəri Moskov tərəfinə gedərək, o vilayəti tamamilə yağma ilə həddindən çox qənimət ələ keçirdi.[50] Əmirzadə Məhəmməd Sultan Qapıcı Qaroul adlanan məşhur olan bütün vilayəti qarət etdi, düşmənin tayfalarından olan Kələçi, Korbuğa, Barlan, Yörkun tayfaları çöllərdə sərgərdan qaldılar. Əmirzadə Əmiranşah düşmənlərə hücum ilə Azaq (Azov) tərəfinə döndü. Əmir Teymur Azov qalasının yanına gələrək bütün o vilayəti əlinə keçirdi. Evlərini yandırdı, vilayətin müsəlmanlarını ayıraraq sərbəst buraxdı. Bütün kafirləri qılıncdan keçirdikdən sonra köç etdi. Çərkəz vilayəti olan Azovdan Kubana qədər olan məntəqədə otlaqlar var idi. O otlaqların hamısını odlayıb yandırmışdılar. Əmirin əsgərləri gəlib otlaqları yanmış gördülər (s. 197). Otsuzluqdan çox zəhmət çəkdilər, güclə bataqlıqlardan keçib səkkiz gündə Kubana gələrək orada bir neçə gün qaldılar.

## Əmir Teymurun əmirzadə Əmiranşahı və əmirzadə Məhəmməd Sultanı Çərkəz tərəfə göndərməsi

Əmir Teymur türklərin Sıçqan il dedikləri yeddi yüz doxsan səkkizinci ildə (16.X.1395—4.X.1396) əmirzadələr Məhəmməd Sultana, Əmiranşaha və Cahanşah Bahadura izn verərək Çərkəz tərəfinə göndərdi. Əmirzadə və əmirlər yola çıxaraq Çərkəzə gedib qarətlə bir çox qənimət *(ulcay)* ələ keçirib oradan qayıtdılar. Əmir Teymur Burağan[51] tərəfinə getməyi əmr etdi. Yolları üzərində olan meşələri kəsərək yol açdılar, get-gedə yolları Elbrus dağı tərəfinə düşdü. Buraya gəldikləri vaxt bu dağlarda bir çox vilayət və qalalar tapdılar, din düşmənləriylə çoxlu müharibələrdə oldular və kafirlərin mallarından çoxlu qənimət ələ keçirdilər.

Buradan köçüb Kuli və Tavus[52] tərəfinə getdilər. Bunların hamısı Elbrusluların vilayətlərindən sayılırdı, qalaları dağların başında tikilmiş yolları qayət çətin və çıxılması müşkül idi. O qədər yüksək idi ki, insan yuxarısına baxmaq istədiyi vaxt gözləri qaralır, papağı başından düşürdü. Xüsusiylə Tavuq qalası çox yüksək, ali və havadar idi, o qədər yüksək idi ki, aşağıdan atılan ox yuxarısına çatmazdı. Merkit qəbiləsindən bir camaat Əmirin sarayının mülazimlərindən idilər, daima dağlarda, dərələrdə ovlanırdılar. Əmir bunları o qalanın yollarının və gizli yerlərinin təftişinə təyin etdi. Lakin bu qalaya çatmaq üçün yol tapılmadı. Əmir Teymur qalanın altını-üstünü gözdən keçirərək nərdivanlar hazırlanmasına əmr verdi. Düzələn nərdivanları qalanın divarlarına (s. 198) iplərlə bağladılar, fədakar bahadurlar Əmirin fərmanına görə canlarını təhlükəyə salaraq o nərdivanlara çıxdılar, ipləri tutaraq çıxıb döyüşə başladılar. Arkuvan vilayətindən bir çox kimsəni öldürdükdən sonra Kula və Tavusu ələ keçirib əsirlərini Əmirə gətirmədən öldürdülər...

(s. 200) (Həştərxan və Saraydan ayrılıb) Əmir Teymur köç edərək Tarkidən keçib Akuşaya[53] gəldi, əsgərlərini hücum üçün ətrafa dağıtdı.

Qazı-Qumuk vilayəti əhalisinin və əsgərlərinin hər il və hər ay kafirlərlə müharibə etmək adəti idi. Əmir kafirlərə qarşı bu müharibədə onların kömək etmələrini istədi. Lakin bu dəfə bunlar adətlərinin ziddinə kafirlərə kömək etmək üçün qalxdılar. Buna görə Əmir beş yüz mükəmməl süvari seçərək onların üzərinə göndərdi və darmadağın etdi. Bunların böyüyü olan Şamxalı yaxalamaq üçün Mübəşşir Bahadur[54] yetişdi və nəhayət ələ keçirilərək başını kəsib Əmirə gətirdi. Geri qalanları da gətirəndə onlardan: «Kafirlərə qarşı qazavata keçməyi nə üçün tərk etdiniz və kafirlərə nə üçün yardım etdiniz»—soruşdu. Hamısı qəbahətlərini, pis hərəkətdə olduqlarını etirafla Əmirdən əfv və mərhəmət tələb etdilər. Bunun üzərinə Əmir Teymur onları əfv edib özlərinə xələt verdi, lütf və ehsanlar göstərdi və geriyə dönüb getmələri üçün əmr edərək özlərinə: «Böyüklərinizə, əmirlərinizə söyləyin, əgər onlar da sizin kimi qəbahətlərini etiraf edərlərsə, gəlib bizə sığınsınlar, işlədikləri qəbahətlərdən tövbə etsinlər. Əgər belə edərlərsə, mən onları taltif edib yenə vilayətlərini özlərinə verərəm»—dedi. Bunlar getdilər, Əmirin ordusu isə Uşkucanı[55] ələ keçirərək onların vilayətinə hücum edib öldürdükləri adamların cəsədlərindən təpələr düzəltdilər.

Bu arada Qazı-Qumuk əmirləri, tacirləri və əyanları Əmirin yanına gələrək qəbahətlərini etiraf etdilər. Əmir Teymur qəbahətlərini əfvlə özlərinə möhtəşəm xələtlər, süslənmiş kəmərlər verdi, əyan və avamlarını əzizləyib toylarını keçirdi və şad-xürrəm evlərinə göndərdi. Lakin qabaqkı kimi kafirlərlə qazavata çıxmaqlarını şərt qoydu, (s. 201) onları cihada təşviq etdi. Buna görə hamısı məmnun və məsrur olaraq qayıtdılar, kafirlərə qarşı qazavata meylləri artdı, müsəlmanlıqla əqidələri qüvvətləndi.

Bir qala daha var idi — Nerqes[56] adlanırdı. Əmir orada da çox müharibə etdi və hesabsız insan öldürdükdən sonra, nəhayət bu qalanı da aldı. Əhalinin bir qismi dağlarda gizləndi, özlərinə möhkəm yerlər düzəltdi. Əmirin əsgərləri dərhal atlarına minərək gəlib bunlara yetişdilər, döyüşçülərin bəzilərini iplə aşağı saldılar və bu qalanı da aldılar. Bundan başqa Belu və Mika adlanan iki qalanı və ayrıca Dərkəlü qalasını da

aldılar.[57] Sonra Zirihgeran vilayətinin əhalisi də itaət altına alındı. Qaytaq vilayətinin əhalisi də gəlib aman istədi. Bundan sonra Əmir Teymur Dərbənd qalasını təmir edib möhkəm bir hala gətirilməsi üçün əmr verdi. Oradan qayıdaraq Şirvana gəldi. Buranın məliki əvvəldən adı çəkilən Şeyx İbrahim idi, səfərlərdə çox böyük mərdlik və fədakarlıq göstərdiyindən Əmirin iltifatına məzhər oldu. Əmir şərəfinə toylar etdi, sonra da oradan köçərək Kür çayının kənarına gəlib orada dayandı. Əmir Şeyx İbrahimə çoxlu ənamlarla ehsanlarda oldu. Xələtlər, qızıl, ziynət şeyləri, papaq, kəmər verdi və vilayətin idarəsini keçmişdə olduğu kimi özünə tapşırdı.

Bir neçə gün orada eyş-ü işrətlə məşğul olduqdan sonra, oradan köçüb Ağdama gəldi. Əmirzadə Əmiranşahı ilqarla Əlincə qalasına göndərdi və əmirzadə Rüstəm Bahaduru[58] onların razılığı ilə yola saldı. Cahanşah Bahaduru əsgərin və vilayətin başçısı təyin edərək onu da Əlincə tərəfə göndərdi.

### (s. 254) Əmirin Hindistandan döndükdən sonra İraq və Azərbaycana getməsi

Əmir Teymur Hindistandan paytaxt Səmərqəndə qayıtdıqdan sonra, İran məmləkətlərinə, xüsusiylə Azərbaycana və ona bağlı yerlərə gürcü və erməni əsgərləri tərəfindən təcavüzlər vaqe olduğunu, buna görə də rəiyyətlərin zərər gördüyünü xəbər aldı. Əmir-i humayun namus və qeyrətinə toxunan bu hala görə səkkiz yüz ikinci ildə (3.IX.1399—21.VIII.1400) hərəkətlə Xorasana doğru yola düşdü. Sultaniyə yolundan keçərək Təbriz Qarabağlarına gəlib, orada nazil oldu və o səhraları çadırları və bayraqları ilə işğal etdi, ordunu təftiş ilə əsgərlərin hamısına *ulufə* və yeyəcək[59] verdi.

(s. 255) Gürcülərin xəbərlərini aldığı vaxt Əmir Teymur Tanrıya şükürlər etdi və Gürcüstana qazavat etməyi qərarlaşdıraraq ordu ilə o məmləkətə qarşı yüyürdü. Kür çayının kənarına gəlib, oraya enərək gəmilərin toplanmasını əmr etdi. Çayın üzərinə körpü qurdular, əsgərlər çayı aşdılar.

Bundan əvvəl Şəki vilayətinin hakimi olan Seyyid Əlini[60] öldürdükdən sonra, oğlu qiyam edərək atasının yerinə keçmişdi. O, Əmir Teymurun gəldiyini eşidib qorxdu və Şirvan məliki Şeyx İbrahimi vasitəçiliyə sövq edib, Əmirin yanına gəlir, itaətini ərz edir və yeri öpmək şərəfinə nail oldu, qüsurlarından dolayı əfv və mərhəmət dilədi. Əmir Teymur onu əzizləyib təltif etdi, sonra da atasının mənsəb və məqamını özünə verdi.

Sonra Əmir oradan hərəkət edib (s. 256) Qarabağa gəldi. Qış mövsümü sona çataraq ilk baharın qoxusu gəlməyə başladığından Əmir Teymur şahzadələri, noyanları və dövlət ərkanını toplayaraq qurultay çağırılmasını əmr buyurdu. Müşavirə və müzakirədən sonra gürcülərə qarşı qazavat edilməsinə qərar verildi. Ordunu təftiş edib, piyadalara at və bütün əsgərə ülufə və yeyəcək paylayaraq Georginin[61] vilayətinə doğru yürüşə başladılar. Qarabağdan Bərdəyə gəldilər, o səhrada çadırları qurdular. Oradan qalxaraq, yollarda Gürcüstan sərhəddinə gəlincəyə qədər ovlandılar. Ordu vilayətinin sərhəddinə gəldiyi vaxt Əmir bir qasid ilə Georgiyə nəsihət etdi: «Əgər canının və xanımanının səlamətliyini istəyirsən, Sultan Əhmədin oğlunu bizim tərəfimizə göndər. Bunu etsən, ordumuzun talanından əmin olarsan və vilayətin sənin öhdəndə qalar»—deyə xəbər göndərdi. Xəbərçi getdiyi vaxt (çar) ona çox qaba sözlər dedi, pis cavablar verdi, aqibəti haqda düşünmədi. Xəbərçi bu (s. 257) pis cavabları Əmirə dediyi vaxt, Əmir dərhal orduya əmr verdi, onlar vilayətə girdilər, əkinləri kökündən qırıb tarlaları dümdüz etdilər. Gürcülər qaçıb dağlara sığındılar. Bunlar möhkəm mağaralar qazmış, evlərini, qalalarını sərt və mətin yerlərdə tikmişdilər. Lakin irəli gələn məşhur cəngavərlər, mərdliyi ələ alıb, sandıqlara girərək iplərlə bağladıqdan sonra dağların üstünə çəkib çıxardılar, mağaralarda olan dinsizlərlə ox, qılınc və mizraqla müharibə etdilər, ataş və neft atdılar, ağaclardan tikilmiş evləri yandırdılar. Dinsizlər can qorxusu ilə çalışdılar. Nəhayət, zəfər müsəlmanlara müyəssər oldu, o möhkəm qalaları ələ keçirdilər, müsəlman olanları buraxdılar, olmayanları qılıncdan keçirdilər.

Sonra Əmir Xorasan əsgərlərini başqalarından ayıraraq ətraf məmləkətlərin mühafizəsi üçün Tiflisdə saxladı.

Georgi bu arslan kimi əsgərlərin gücünü gördüyü vaxt tülkü kimi qaçdı. Gürcülərin başçıları acizliklərini anlayaraq hamısı Əmirin yanına gəlib, baş əydilər, aman istədilər. Nə zamandan bəri Tanrının yanında məqbul olmayan ibadətlərə və etiqadlara yer olan kilsələr *təkbir* ərbabı tərəfindən sökülərək yerlə yeksan edildi.

(s. 258) Georgi ox yemiş pələng kimi bir meşədə gizlənmişdi. Əsgərlər onu tapmaq üçün ətrafa yayıldılar. Hər yerə baxdılar, tapmayıb çoxlu qənimət ələ keçirərək geri döndülər. Əmir Teymur, əmirlərini belə bir arada gördüyü vaxt qalxdı və Kür çayını keçib orada dayandı. Bu arada Əmir Teymura xəbər verdilər ki, gürcü Navran (?) Zorid qalasını[62] həddindən artıq möhkəmlətdi. Bu, yüksək bir dağın başında tikilmiş möhkəm bir qala idi, heç bir kimsənin bu qalanı qüvvəylə zəbt etdiyi tarixlərdə qeyd olunmayıb.

Böyük əmirlər və seçkin əsgərlər hər cür fədakarlığı gözə alaraq arradə və mancanik qurdular və beş gündən sonra qala alındı və yerlə yeksan edildi. İçində olan gürcülərin hamısı öldürüldü.

Bu arada Georginin Svanet deyilən yerdə olduğu xəbəri alındı. Əmir ordunu irəli sürərək o tərəfə getdiyi vaxt, Georgi qaçıb Abxaz tərəfə getdi. Əmirin ordusu Svanet qalasını[63] da ələ keçirdi. Ordu Georginin arxasından təqib ilə yola çıxaraq, onun ələ keçirə bildikləri bir çox adamlarını öldürdü.

## (s. 289) Əmir Teymurun Bağdaddan dönməsi və Təbriz tərəfə getməsi

Ordu Bağdaddan döndüyü vaxt[64] Kürdüstan yolu ilə Təbriz tərəfə yola çıxdı. Ordu Ağ Məşhəd çölündə çadırlar qurub dayandığı vaxt İranın, xüsusilə darülmülk (paytaxt) Təbrizin böyük adamları və seyidləri əyani qarşılamaq üçün çıxaraq məqam-i humayunun tozu ilə gözlərini nurlandırdılar, din və millətin ərkanı və xalqın əşrəfi olan alimlər bir neçə dəfə Əmir Teymurun məclisində hazır olub elmi və dini mübahisələrdə oldular və Əmirin ənam və ehsanına nail oldular. Sonra məqam-i humayun oradan hərəkətlə Ucan tərəfə getdi, (s. 990) Köşk-ü Qazani[65] bir neçə gün Əmirin içində iqamət etməsiylə, Cənnət köşklərinə qibtə verdi.

Buradan qalxaraq darülmülk Təbrizə doğru yollandı. Təbrizi şərəfləndirdiyi vaxt rəiyyətlərinin və zəiflərin halıyla müqayyət oldu, məzlumların haqqını zalımlardan aldıqdan və hər təbəqədə olan insanları lütf-ü ehsanlarına qərq etdikdən sonra, qılıncını yenidən düşmən qanıyla boyamaq və onların vücudunu tamamiylə məmləkətdən kənara çıxarmaq istədi. Əmirin himməti asayişi təmin etmək və islam nüfuzunu məmləkətlərdə qaldırmaq və şirk-ü küfrü tamamiylə yox etmək qayəsinə yönəlmişdi.

Gürcü əsgərləri Əmirin bu yerlərdə olmamağından istifadə edib hədlərini aşmışlar və buna görə bunların layiqincə dərslərini vermək lazım gəlirdi.

Məqam-i humayun Şəmkür çöllərinə gəldiyi vaxt gürcülər, günəşin nurunu görüncə, qaranlıq guşələrə yarasalar kimi bir dəliyə soxuldular, qaçmaqdan başqa bir çarə tapmadılar. Lakin öz ərazilərini, məmləkətlərini, əkinlərini və yaxınlarını bu həzrətin qəzəbi-atəşindən qorumaq üçün yanına dalbadal elçilər göndərməyə məcbur oldular. Müxtəlif əşya, atlar və sair heyvanlar gətirib peşkəş edərək bu minvalla yaxalarını qurtara bildilər. «Əmir həzrətləri aləmlərini Tanrısı və bütün mərhəmətlilərin mərhəmətlisi olan Allahın bir kölgəsidir. Allahın rəhməti isə müsəlmanlara, kafirlərə və müşriklərə şamildir. Onun kərəm süfrəsindən hər kəs nəsibini alır. Onun ehsanından hər kəs müstəfid olur. Əmirin və Allahın bu adətinin arxasınca gedərək mərhəmət edib bizim qəbahətlərimizi əfv etməsini rica edirik. Bu dəfə də bizə möhlət versin, ata və əcdadımız, keçmiş padşahlar zamanında necə bu torpaqlarda yaşadılarsa, biz də yaşayaq. Xərac və vergi malını Əmirin xəzinəsinə göndərək. Hər səfərbərlikdə nə qədər arzu edilir və qərar verilirsə, o qədər əsgər, *cizyə* arzu edilirsə *cizyə* verək, amma əmin-amanlıqda olaq»—dedilər.

Əmir Teymur onların bu ricalarını dinlədikdən sonra günahların əfv etdi, hədiyyələrini qəbul buyurdu və bundan sonra köləlik və itaət dairəsinə girərək bəndəlik xidmətində qüsur etməmələrini, göndərib gətirmə və gedib gəlmə qapılarını açmalarını və müsəlmanların hər şeyini aman və əmniyyət altına alaraq, onları əziz və möhtərəm tutmalarını, (s: 291) dinsizlərin qayda və ayinlərini müsəlmanların məmləkətlərində bundan sonra işlətməmələrini şərt qoydu. Onlar da bu şərtləri qəbul ilə bunun üzərinə əhd-ü peymanda oldular. Əmir də bunların elçilərini əzizləyib onlara xələtlər verdi, könüllərini xoş edərək məmləkətlərinə göndərdikdən sonra özü oradan Qarabağ qışlağına getdi.

## Əmirin Qarabağda qışlaqda qalması

Gürcü məsələsini arzu edildiyi vəchlə nəhayətə çatdıqda, asilər itaət altına girdikdən sonra, Əmir Teymur rəbiülaxırın iyirmi ikinci günündə[66] uğur və səadətlə, böyük əmirlər, noyanlar, şahzadələr və xatunlar hamısı bərabər Qarabağa gəldilər, sərapərdə, çadır və xeymələrini o ərazidə qurdular. Qələbə və zəfər bayraqlarının ayları göylərə doğru yüksəldi.

(s. 292) Bundan sonra oraların çöllərində bir müddət ov aləmi quraraq bir çox ahular ovladılar, o geniş çölü hər cür ov heyvanlarından təmizlədilər. O əsnada xaraba bir şəhərə rast gəldilər[67] ki, bu keçmiş zamanda yaşamış olan böyük padşahlardan qalmışdı, lakin zamanı keçməsiylə xarab olmuş, ətrafları və özü hadisələrə görə sökülmüş, dağılmışdı. Bu Əmir Teymurun diqqət nəzərini cəlb edərək: «Böyük padşahların iqtidar və qüvvətlərindən edəcəkləri istifadə savab və yaxşılıq vücuda gətirməkdir. Biz bu gün necə keçmiş padşahların əsərlərinə tamaşa ediriksə, hər halda bizdən də bir əsər qalmalıdır, ta ki bizdən sonra da bizim adımız daim qalsın» — buyurdular.

O zaman çayın yatağının qazılmasını əmr etdi. Bu elə bir çay idi ki, vaxtilə çox adlı-sanlı padşahlar xeyli zaman çalışdıqları halda mükəmməl bir hala gətirə bilməmişlər, çünki bunun ağzını Köşk-i Cankişi deyilən yerdə Araz çayından kəsmişlər. Bunun uzunluğu on *fərsah*, bəlkə də daha çox idi, indi isə kiçik bir dəniz halına gəldi.

Bu əməliyyatı bir ay içində tamamlayaraq, suyu axıtdılar. Bu çayın (arxın) axırı Sərçə Beli deyilən yerdə Pir Kəmər (Kamal?) məzarı yanından keçəcək Gilan və Mazandaran (Xəzər) dəryasına axacaq.

Əmir böyük xanədanının bu vasitə ilə adını əbədi etmək üçün bu çaya (arxa) Barlas çayı adını verdi. Bütün vilayət əhalisi bu xeyrat ilə məsud və məsrurdur, hamısı bunun ətrafında əkinçiliklə məşğul olub, evlər, dəyirmanlar, kəndlər tikir və heç şübhə yoxdur ki, bunlar zaman keçdikcə bir gün o məmləkətlərin gözəlləşməsinə səbəb olacaq.

## (s. 331) Əmirin Gürcüstan tərəfə getməsi

(1402-ci ildə) Əmir Teymur daima gürcü kafirlərinin islam əhlinə qarşı zərərlərinə mane olmaq qayəsini təqib edərdi. Əmir Rum diyarından qayıtdığı vaxt, gürcü məliki Georgi hüzurda yeri öpmək şərəfiylə müşərrəf olmaq və ərz-i itaət etmək üçün keçən il bir vaxt təyin edilməsini istəmişdi. Halbuki adı keçən sözündə vəfasız oldu, hüzura gəlmədi. Bu hal Əmirin din qeyrətinə toxundu. Bu hadisə Əmirin islam aləmini bu tayfanın xəbis vücudundan təmizləməyə, qərar verməsinə bais oldu. Buna görə Əmir Gürcüstan tərəfə hərəkət etməyə əzm etdi. Qarsdan çıxıb (s. 332) gürcünün çöl və vilayətlərinə daxil oldu.

Hər şeydən əvvəl məmləkətin girdisini və çıxdısını zəbt etmək üçün keçmişdən tabelik və sədaqət uğrunda heç bir fədakarlığı göstərməkdən çəkinməmiş olan sadiq, muxlis bəndələrdən Şirvanat valisi Şeyx İbrahimə əvvəldən getməsini, məmləkətin gəliri və məsrəfini zəbt edilməsini söylədi. O məmləkətlərin valisi Georgi, Əmirin arslan kimi əsgərlərinin hərəkətə gəldiklərini eşitdiyi vaxt, qorxudan qəlbi bir quş kimi çırpınmağa başladı. Əmirin bir işarəsiylə tamamilə məhv və xarab olması mühəqqəq (s. 333) olduğunu anlayaraq bir çox hədiyyələrlə elçilər göndərdi və yalvararaq: «Mən kiməm ki, belə bir hökmdar mənim məsələm ilə məşğul olsun və mənim üçün şəxsən özü zəhmətə girsin? Əgər məqsəd məni qulluq və köləliyə dəvətdirsə, mən müti və bəndəyəm, mal göndərərəm və nə zaman arzu edilirsə ona bağlılığımı göstərərəm. Lakin Əmir həzrətlərinin lütfi böyükdür, bundan aldığım cəsarətlə bu arada hüzura gəlib yeri öpməklə müşərrəf ola bilmədim. Əgər Əmir mərhəmət buyurursa, təminatı əvvəldən aldıqdan sonra hüzura gələn başqa əmirlər kimi mənim də sonradan gəlməyimə müsaidə buyursun»—dedi.

Əmir həzrətləri bu sayıqlamalara heç əhəmiyyət vermədi. Buna görə göndərdiyi hədiyyələrin hamısını məclisdə olanlara payladı, birini də qəbul etmədi və elçilərə: «Ona deyiniz ki, sənin məsələn başqalarının məsələlərinə bənzəməz. Əgər cəzadan xilas olmaq istəyirsən, heç fikirləşmədən gəl və hüzura gəldiyin zaman da əgər Allah yardımını yoldaş edərsə, müsəlman olarsan, o zaman sənin haqqında nə qədər çox lütf və ehsan edildiyini aləm görər və eşidər. Əgər Allahdan tovfiq görməsən, sənə heç bir şey etmərəm, çünki Cənabi haqq buyurur «dində məcburiyyət yoxdur», sənə yalnız cizyə təyin edərəm. Malın, varın, qadın və uşaqların toxunmaz qalır. Sənə kəramət göstərib məmləkətini yenə sənin öhdəndə qoyaram. İstanbul valisi də sənin din və millətindən idi, bizə iltica ilə *cizyəni* qəbul etdi, nə qədər lütf və ehsana nail olduğunu əlbəttə eşitmisən, sənə də eyni rəftar edərəm. Əgər başqa bir fikirdəsənsə, bu heç qəbul edilməz»—dedi.

Elçilər qayıtdıqdan və bu əhvalatdan bir neçə gün keçdikdən sonra, Əmirə onların əkinliklərinin yetişdiyini və məhsul alınacaq zamanı gəldiyi halda vaxt qazanmaq və qüvvətlənmək üçün, həm də məhsulu toplamağı bəhanə etdiklərini söylədilər. Əmir Teymur, əmirzadə Şeyx Nurəddin Bahadura o məmləkətlərə gedib onları dağıdaraq, məhsulatı əsgərlərə yığdırmasını əmr etdi.

Əmirzadə Şeyx Nurəddin Bahadur getdi, bütün gürcülər qaçdılar, müqavimət göstərmədilər. Əmirzadə gözlədi, əsgərlər ona (s. 334) güvənərək tam əminiyyətlə məhsulu yığdılar, xırmanlayıb götürdülər və sağ-salamat yerə orduya gəldilər.

## Gürcülərin böyük qalalarından olan Berd[68] qalasının fəthi

Bu əsnadə Əmir Teymur bir neçə köçdən sonra Berd qalasının yanına gəldi. Bu, yüksək bir dağın başında o qədər möhkəm tikilmiş qala idi ki, səyyahlar bu qaladan çox az xəbər verirlər. Dünyanın hər tərəfində ordu əsgərləri tək-tək minlərcə qala fəth etdikləri halda, bundan mətin bir qala görmədiklərini söyləyirdilər. Bu qalanın valisi Tural adında gürcü əmirlərindən biri idi. Onun yanında gürcülərin başda olan adamlarından—Navran kimidən otuz nəfərə yaxın adam da var idi. Əsgərlərinin ədədi yüz əlli idi. Bundan qabaq Əmirin ordusu buraya gəlmiş, lakin bu qalanın fəthi ilə məşğul olmamışdı. Hər kəs, bu qala çox möhkəm olduğundan, Əmirin bunu fəth etməyə cəsarət etməyindən danışırdı. Bunlara belə düşünməkdə haqq vermək lazım idi, çünki qala yüksək bir dağın başında tikilmiş və ətrafı yüz əlli *gəz*[69] yüksəkliyində daşla hörülmüşdü. Yolları çox çətin, dar, qarışıq və qalanın ətrafı dağlıq və qayalıq idi. Qalanın içində su anbarları, ərzaq xəzinələri var idi, amma qalanın xaricində su heç yox idi, havanın istisindən oranın ətrafı yanar soba kimi idi. Əmir özü gedib buranı gözdən keçirtdi və hər bir adam bu qalanı fəth etmək fikrindən uzaq olmasını düşünürdü. Mən də (müəllif) bu mübarək səfərdə Əmirin əmri ilə yanında idim.

Qala mühafizliyi və qala alınması ilə məşhur bir neçə sərdarlardan: «Bu qalanı almaq mümkündürmü?»—deyə soruşdum və hamısı bunu uzaq görərək, mümkün olmadığını, bəlkə uzun bir zaman mühasirədən sonra mümkün olacağını, lakin bunun da zor olduğunu söylədilər, çünki «Əmir Teymur bu qalanı mühasirə ilə işğal etməz. Əgər bir ordu göndərsə, bunun çox az bir qismi qalaya çatar, çünki bu qala düşmən məmləkətinin ortasındadır. Əgər bizzat özü getsə, başqa əsgərlər də durmazlar, onlar da getmək (s. 335) istərlər; əgər hamısı getsə, susuzluq və otsuzluqdan çox sıxıntı çəkərlər»—dedilər. Xülasə, sərdarların hamısı bu qalanın alınmasının müşkül olduğunu söylədilər.

Əmir Teymur, talenin yardımı və Allahın təyidi ilə, məhərrəm ayının on dördündə, cümə günü (1403-cü il avqustun 3-də) bir saatda hərəkət edərək o əraziyə vasil və nazil oldu. Qalanın içində olanlar bir neçə kişi göndərib şahin və hədiyyələr göndərərək ərz-i itaət etdilər, lakin sonra sözlərində durmadılar, ox və daş atdılar.

Əmir Teymur əmirlərə hər bir tərəfdən qalaya hücum etmələrini əmr buyurdu.

Qalanın bir darvazası var idi ki, bu da həqiqətən başlı başına bir qala idi və elə möhkəm idi ki, ağlı başında olan heç bir adam və heç bir mütəfəkkir bunun alına biləcəyini təsəvvür edə bilməzdi. Əmir Teymur bu darvazanın alınmasını əmirzadə Şah Məlik Bahadurun[70] öhdəsinə həvalə etdi. Qalanın müqabilində möhkəm bir qala tikilməsini, əmirlərə də hər iki tərəfdə digər iki qala inşa edilməsini əmr buyurdu. Bundan da məqsədi qalanın zəbtində gecikmə olsa, bahadurları bu qalalarda yerləşdirmək və zaman keçdikcə bunların vasitəsiylə düşmən üzərinə təzyiq icra etmək idi.

Əmir Şah Məlik üç gün ərzində qalanı tikdirdi. Bu qala o qədər böyük oldu ki, üç min əsgəri içərisinə götürə bilirdi. Hər kəs bu qeyrət qarşısında heyran qaldı. Bu arada Əmir Teymur həmin qalanın yanından qala arxasına qədər keçdi, mancanaq və arradə qurulan yerə gəldi və əmr etdi ki, bunların sayı artırılsın. Əmri yerinə yetirdilər. Nərdivanlar qurdular, qalanın üstündə daş və ağacdan sipərlər tikildi. Əmir düşmənlərin qalasını görə biləcək şəkildə bunların yüksəltmələrini əmr etdi.

Qalada hər şeydən əmin laqeyd olan bir para gürcülər: «Bu elə bir qaladır ki, bunun üstündən quş belə uçmaz, mancanaq və arradədən bizim nə qorxumuz ola bilər?»—deyirdi. (s. 336) Qalanın cənub tərəfində elə tərpənən sallaq və yüksək bir daş var idi ki, onun üstündən getmək kimsənin vahiməsindən belə keçməzdi. Gürcülər qalanın içindən bunun üstünə nərdivan quraraq iplər atdılar, oraya çıxmaq istədikləri vaxt o nərdivan və iplə çıxırdılar.

Məhərrəmin iyirmi birinci günü (10.VIII.1403) türklərin Merkit qəbiləsinin Quhrəvan qolundan bir kişi bir hiylə ilə o daşın üstünə çıxaraq qalanın içinə girdi. Gürcülərdən bir keçi tutub o daşın üstünə çıxardı, orada onu öldürüb bir nişan kimi qoydu. Gürcülərin bundan xəbəri olmadı. Ertəsi günü hadisəni Əmir Teymura danışdılar. Merkitlərdən bir dəstənin, necə istəyirlər o daşın üstünə çıxmalarını, onu ələ keçirib, düşmənlərin o biri tərəfdən salladıqları ipi kəsərək nərdivanı çəkmələrini əmr etdi. Bu təklifə qarşı Merkitlər daşın üstünə çıxmaq üçün əlli *gəz* uzunluğunda bir kəmənd atmaq lazımdır—dedilər, lakin o daşın üstündə bir ağac görünür, bu gözəl bir təsadüfdür. O ağaca kəmənd atmaq mümkündür. Əgər kəmənd ağaca sarılar və bağlanarsa, o vaxt daşın üstünə çıxmaq olar,—dedilər. Atdıqları kəmənd ağaca ilişdi və bunu xeyirli bir əlamət saydılar.

Nəhayət ipi ağaca bağladılar. Əmir Teymur Merkitlərdən bir dəstəsinin yuxarı çıxmasını əmr etdi. Cəsur kəməndazlardan dördü yuxarı çıxdı, düşmənlərin nərdivanlarını çəkdilər və əlavə beş nəfəri daşın üstünə qaldırdılar.

Bu işləri görəndə gürcülər yuxuda idilər. Səhər açılanda taciklərin biri (s. 337) baxdı və gürcülərin oyanmasını və hərəkətə gəldiklərini gördü. Xəbərdar olduqları vaxt gürcülər döyüşə girişdilər.

Qalanın üstündə daşdan bir qüllə var idi; bu, həddindən çox dar və təhlükəli idi və onun içində üç nəfərdən artıq adam yerləşə bilməzdi. Bu üç Merkitdən biri çəpəri əlində tutdu, ikisi isə bunun qabağında döyüşürdü. Birdən bir ox çəpərtutanın ağzına vurdu və o çəpəri atdı, lakin yenə yerində durdu. Gürcülər çəpəri atdılar, bahadurlarından ...adında biri qayət göstərdi və atılaraq o daşın üstünə yaxın bir yerə çıxdı və qılıncı ilə bu iki nəfərə hücum etdi, birini çox yerdən yaraladı. Bunların üçüncüsü Əmir Teymurun yasavullarından Mahmud adlı bir adam idi. Bunun əlində gürz var idi və o, aznavura hücum edərək zərbəsiylə onu geri çevirdi. Damın üstünə çıxan beş nəfərdən bəziləri darvaza tərəfə getdilər və orada döyüşdülər.

Xaricdən də Əmir Şah Məlik hücum etdi. Nəhayət, islam ordusuna zəfər müyəssər oldu. İslamın bayraqları bu Əmir Qazinin səyi və qeyrəti ilə göylərə yüksəldi. Xülasə gözlərini açıb qapayıncaya qədər vəhmin belə böyüklüyünü təsəvvür etmədiyi bu qalanı zəbt etdilər.

(s. 338) Bu döyüş məhərrəmin iyirmi üçüncü bazar günü gecəsi oldu (1403-cü il avqustun 12-si, bazar günü). Bu işə başladıqlarından bu günə qədər doqquz gün keçmişdi. Gürcülər işin əldən getdiyini və dövlətlərinin alt-üst olduğunu gördükləri vaxt əllərini aman üçün qaldırdılar. Əmirin ordusu qarətə başlayıb kafirlərin hamısının əllərini-ayaqlarını bağlayaraq Əmir həzrətlərinin yanına gətirdilər, Əmirin bunların qılıncdan keçirilməsi əmri ilə elə qətliam törətdilər ki, onlardan heç kim qalmadı. İntiqam uğrunda yaşıl qılınclarının bu üzü qaraların qanlarıyla qırmızı rəngə boyanmaqla bərabər islamın üzünü bu fəth və zəfərin müjdəsi ilə ağartdılar, kafirlərin kəllələrindən aləmə ibrət olmaq üçün təpələr, minarələr vücuda gətirdilər. Arvadlarını və uşaqlarını əsir aldılar. Müsəlmanların *təkbir* avazları göylərə çıxdı.

Bundan sonra Əmir qalanın idarəsini Xorasan sərdarlarından Taxça Boran adında bir nəfərə verdi və vilayətin ətrafını və nahiyələrini ona iqta etdi.

### (s. 339) Əmir Teymurun ermənilərə qarşı qazavat edib Abxaz tərəfə getməsi

Berd qalası məsələsi tamamilə həll edildi. Bu belə müəzzəm bir iş idi ki, bundan daha böyüyü və müşkülü heç kimsənin xatirindən keçməzdi. Belə bir işin həlli üçün ayların, illərin sürəcəyi zənn olunurdu. Halbuki çox

az bir zamanda xitam oldu. Əmir həzrətləri bundan sonra daha böyük işlərə təşəbbüs etmək istədi. Buna görə də ermənilərə qarşı qazavat məsələsini ciddi sayaraq, Şeyx Nurəddin Bahadur, Əmir Şah Məlik Bahadur kimi əmirləri ucu-bucağı olmayan müəzzəm bir ordu ilə əvvəldən göndərib Abxaz hüdudlarına qədər irəliləmələrini əmr etdi və özü hərəkətlə bir neçə gündən sonra Ərmən vilayətinə vasil oldu. Yeddi yüzə qədər kilsə, qəsəbə, tarla qarət etməklə bərabər əlinə keçəni doğradı, cəsədləriylə quşlara, qurdlara ziyafət verdi. Kilsələrini yandırıb dağıtdı, bostanlarını, ağaclarını, üzüm bağlarını xarab etdi. Ağaclarını kökündən çıxartdı, bəzisini yandırdı, nə qədər mümkünsə o qədər təxribat etdi.

Rəbiüləvvəlin on ikinci, bazar ertəsi günü (29.IX.1403) əmirlər ilqardan müzəffər olaraq qayıtdılar. Bir neçə gün əyləncələrdə oldular. Ayın on səkkizinci, cümə gününü (5.X.1403) Əmir həzrətləri ovda keçirdi. Bundan sonra vəhşi heyvanlardan fərqi olmayan erməniləri də ovlamaq, onları da heyvanlar halına gətirmək məqsədiylə yola çıxdı. Lakin bundan əvvəl Əmirin əsarəti altında olan gürcülərin mötəbər əmirlərindən birini göndərdilər. Bu adam Georgini Əmirin hərəkətindən (s. 340) xəbərdar edərək ona: «Əgər Əmir qeyz və kinli hərəkətə gəlirsə, belə Georgi kimilərdən minlərini intiqam pəncəsində məhv edər. Əgər bu ordunun qabaqcıl hissəsi bir-iki mənzil Abxaz tərəfə yaxınlaşarsa, Ermənistan və ermənilərdən yerindən və yurdundan heç bir əsər qalmaz»—dedi: Ermənilər Əmirin ordusunun əsgərləri qarşı-qarşıya gəldiyi təqdirdə ermənilərdən bir canlı qalmayacağını anladılar.

Georgi bu sözü qəbul edərək yerini anlayıb elçilər göndərdi, zar-zar yalvardı. Əmirə onun şanına layiq qiymətli qab-qacaq və sair hədiyyələr göndərdikdən sonra[77] *cizyə* və *xərac* qəbul etdiyi kimi, keçmiş və gələcəyə aid Xəzinənin hər cür tələbatını verəcəyini və hətta candan və könüldən vəd etdi ki, hər il cizyə və xəracı divan-i xassaya göndərəcək.

Əmirlər bunun halına acıyaraq şəfaət etdilər. Diz çöküb bunun üçün Əmirə yalvardılar və ona: «heç şübhə yoxdur ki, Əmir Teymurun himməti dini yüksəltməyə və şəriətin mərasimini ehya etməyə yönəldilib. Əlhəmdülillah şəriətin əmri yerinə gəlmişdir, düşmənlər daha baş qaldırmır və acizanə itaət üçün müraciət edirlər, cizyə verməyi də özlərinə minnət bilirlər. Əgər bunların bu ricaları qəbul edilərsə, mülk, millət, din və dövlətin məsləhət və mənfəəti üçün müvafiq hərəkət edilmiş olar. (s. 341) İndi məmləkətlərində əmin-amanlıq içində yaşamaq üçün sizə tabe olmağa razı oldular. Artıq bundan sonra da müsəlmanlar onların paytaxtına qədər gedərək orada yaşaya bilərlər»—dedilər.

Lakin Əmir həzrətləri buna razı olmayaraq ona edilən bir çox müraciətlər və şəfaətlərdən sonra bu xüsusda alimlər və müftilərlə məşvərət etmək lüzumunu gördü və bunların hamısı: «Madam ki, cizyəni qəbul edirlər, buna əsasən lütf və mərhəmət edərək bunlara aman vermək lazımdır»—dedilər. Buna görə Əmir həzrətləri alimlərin fitvası və əmirlərin şəfaəti ilə ricalarını qəbul ilə razılıq göstərdi və elçiləri qorxu içində geri göndərdi.

Elçilər bir neçə gün içində gəldilər, min qızıl *təngə,* on səkkiz *misqal*[72] ağırlığında günəş kimi parlayan bir yaqut parçası və bununla bərabər qiymətli qumaşlar və hədsiz-hesabsız avadanlıq gətirib Əmirə təqdim etdilər, bir neçə şərtlərlə müqavilə bağladılar, cizyə və xərac verməyə razı oldular.

Bundan sonra Əmir Teymur səfərdən dönməyə qərar verərək, bir neçə köçdən sonra Tiflisin yaxınlığına vasil oldu. Oradan iki mənzil uzaqlaşdıqdan sonra Beyləqan tərəfə getməyə qərar verdi. Sürətlə gedərək Beyləqan ərazisinə nüzul ilə çadırları qurdular.

### (s. 343) Beyləqan şəhərinin tikilməsi və xəndəyin qazılması

Əmir Teymurun himməti bütün aləmin rifah və rahatlığına bağlı olduğundan Turan vilayətlərində necə məşhur yerləri imar edirdisə, İran məmləkətlərində də belə əsərlərlə adını dünyada qoymaq xatirinə Allahın kəlamı üzrə imarı, tikməyi dünyada istənilən və rəğbət edilən bir iş sayırdı və bu cəhətdən Əmir özündən sonra şahanə əsərlər qoymaq istədi. Buna görə əmr etdi ki, Beyləqan ərazisində bir yeri imar etməyə başlasınlar.

Bir şəhər xəritəsi cızdılar, bu xəritə geniş bir divar, dərin bir xəndək və bazar və bir çox evlər, hamam, karvansaray, meydan və bostanlar üçün dörd güşə sahələri ehtiva alırdı. Bunun barısının çevrəsi *şər'i zira*[73] ilə iki min dörd yüz *gəz*, divarının eni on bir gəz, barının *şərəfələrə*[74] qədər yüksəkliyi on beş gəz, xəndəyin eni qırx gəz, dərinliyi təqribən iyirmi gəz idi. Barının geniş yerlərində şəhərin mühafizləri və gözətçiləri üçün xanələr tikdilər, bürcün dörd yanının hər birində çıxış yerləri və daşatan alətləri inşa etdilər.

Həqiqətən, əgər hər hansı böyük bir hökmdar inşaat məlzəməsi əvvəldən hazırlanmış olmaq şərtiylə belə bir şəhərin tikilməsini bir ildə bitirsəydi təəccüb olunardı. Halbuki bu böyük şəhər həm inşaat məlzəməsi olmayan belə bir çöldə məhz Əmir Teymurun bir işarəsiylə bir ayda vücuda gəldi. Ağıllılar bu müvəffəqiyyətə heyran qaldılar, aləm təqdir edib əhsən dedi, güc və intiqam ilə ənam və ikram qəhrəsinin səltənət aynasında cəm olduğunu gördü. Elə bir hökmdar ki, qəzəb və sərtliyi göstərdiyi zaman zirü-zəbər edərsə, lütf və ehsanıyla da dünyanı ehya etmək qüdrətinə malikdir. Allah onun mərhəmət sayəsini aləm və aləmdə yaşayanlar üzərində əskik etməsin, onun dövlət günəşi daima doğu və batı üzərində parlasın. Bunun haqqında bu iki beyt bu kitabın müəllifi tərəfindən söylənmişdir:

Əmir Teymur, erməni və Georgi qazavatından döndüyü vaxt hicrəttən səkkiz yüz altı[75] və bir qədər kəsir il keçmişdir. Mülk, millət və dinin qütbü, dünyanın *xedivi*[76] Teymur, bir ay ərzində belə bir şəhər inşa etmişdir.

## (s. 345) Əmirzadə Ömərin Səmərqənddən Azərbaycan tərəfə gəlməsi və bunun səbəbləri

Əmir Teymurun nəvəsi (və Əmiranşahın oğlu) əmirzadə Ömər Bahadur bundan əvvəl (s. 346) Azərbaycanın və ona tabe olan yerlərin idarəsi üçün Əmirin əmriylə çağırılmışdır. Bu arada Səmərqənddən Beyləqan ərazisinə gəldi, buraları cumadaüləvvəlin başlanğıcı, cümə günü (16.XII.1403) öz təşrifi ilə şərəfləndirdi və nurlandırdı.[77]

## Beyləqan çayının (arxın) açılması

Mədəniyyət baxımından və bəlkə insanın möhtac olduğu altı şeydən biri də sudur. İnsanın məişəti, bəlkə əşyanın xilqəti buna bağlıdır və Allah «Biz hər bir şeyi sudan diri yaratmışıq» buyurmuşdur və yenə Allah axirət nemətləri zikr etdiyi vaxt Cənnəti də daima axan suları ilə vəsf edib buyurur.

Elə bu cəhətdən Əmir Teymur bu yerdə sakin olanların rifahı və səadətini düşünərək bir çay (arx) vücuda gətirmək istəyərək əmr verdi. Beyləqan ərazisindən keçən və o tərəfdə ərazi və kəndlərin ziraatda istifadəsindən sonra suyu artan Araz çayının sahillərindən bir arx açdılar, bu çayın mənsəbi altı fərsah və eni on gəz olaraq ancaq bir ildə çəkilməsi mümkün olan bu nəhəng işi elə-belə bir ayda başardılar və bu sayədə Əmir həzrətlərinin himmətiylə bu şəhər və vilayət də abadlığa qovuşdu.

## Əmir Teymurun Qarabağ-i Arrana gəlməsi və orada eyş-ü işrətlə vaxt keçirməsi

Əmir Teymur Qarabağ-i Arrana gəldiyi vaxt orada eyş-ü işrətlə bir müddət vaxt keçirdi. Bu arada bu mübarək tarix kitabında bir neçə yerdə xanədanının böyüklüyü və qədimliyi haqqında sözü keçən Şirvanat məmləkətləri valisi Şeyx İbrahim Əmirin şərəfinə toylar etdi və lazım gələn xidmətdə qüsur etmədi, Əmirin olduğu günlərdə hər həftə və (s. 347) hətta bir neçə gündə bir kərə bir bəhanə ilə böyük toylar quraraq zövqü səfa ilə vaxt keçirdilər. Turan və İran məmləkətlərindən, türk, tacik, ərəb, Əcəmdən seyidlər, üləma, şeyxlər, qazilər, imamlar, müftilər, sahiblər, sədrlər, ağalar və şəriflər orada toplandılar.

Bu arada Bağdaddan Sultan Əhməd Cəlairinin oğlu Nurverdini[78] əsarət zəncirləriylə bağlı başı açıq və ayağı yalın Əmirin hüzuruna gətirdilər. Əmir həzrətləri buna mərhəmət edərək əmr etdi ki, ayağından buxovlarını qırsınlar, sarığını başına qoysunlar. Bir neçə gün sonra mərhəmət edərək ona xələt verdi və təltif etdi.

(s. 348) Bu vaxt Sultan Əhmədin bir fağır paltarını geyərək Şama gəldiyini, lakin tanınaraq yaxalandığını və eyni zamanda Türkmən Qara Yusifin o vilayətdə ələ keçdiyini bildirdilər. Buna görə Əmir həzrətləri bir elçi göndərərək Qara Yusifin yolkəsən quldurlardan olduğundan və dəfələrlə həccə gedənləri qarət və müsəlman məmləkətlərini talan etdiyindən, başqa fitnə-fəsadçılara ibrət olmaq üçün təxirə salmadan edam edilməsini və Sultan Əhmədin yanına göndərilməsini əmr buyurdular.[79]

Mübarək ramazan ayının səkkizinci günündə (20.III. 1404) Şahzadə Məhəmmədin vəfatının ili olduğundan[80] mərhumun pak ruhu üçün xeyrat verilməsi əmr buyuruldu. Tərtibat edildi, Qarabağ çölləri başdan başa müxtəlif nemətlərlə doldu. Hər tərəfdən üləma, əşrəf və seyidləri topladılar. Qur'an oxudular. Sonra süfrələr açıldı, yeməklər verildi, dualar oxundu, mərhumun ruhunun şad olması və Əmirin dövlət və şövkətinin əbədiliyinə dualar oxundu.

(s. 349) Sonra ayın doqquzunda (21.III.1404) xatunlar, cariyələr, şahzadələr, əmirlər və vəzirlər, sipahilərlə bərabər atları, köpəkləri, pələngləri, filləri, yanlarında pulları olduğu halda, dəbdəbə və təmtəraqla, nəhəng ordu ilə mübarək bir saatda başda Əmir həzrətləri olmaqla yola düşdülər. O Qarabağ çöllərini əmin-amanlıq içində zövq-ü səfa ilə keçdilər. Vətənə qayıtdılar.

## ŞƏRHLƏR VƏ QEYDLƏR

[1] Öz müqəddiməsində müəllif özünü Nizam-i Şami adlandırır və bununla da bəlkə Təbrizin Şam adlı məhəlləsinə işarə edir (bax: Həmdullah Qəzvini. Nüzhət əl-qulub. Le Strencin tərcüməsi.—London, 1919, s. 79—81; Ç. A. Stori. İran ədəbiyyatı, İngiliscədən tərcümə edəni Y. E. Brekel, II hissə, M., 1972, s. 787 və sonralar).

[2] Şərəfəddin Əli Yəzdi onu Mövlana Nizaməddin Şənbi, Mirxond və Xondəmir—Mövlana Nizaməddin Şənb-i Qazani adlandırırlar.

[3] Hüseyn Naxçivani və Məhəmmədtağı Daniş-Pəjuh hesab edirlər ki, tarixçi Nizaməddin Şami eynilə Nizam Təbrizidir (bax: Ç. A. Stori, Y. E. Brekelin əlavəsi, s. 788, haşiyə 4).

[4] Bax: Mücədvəli dar zikr-i 'itrat-i Nəbi (bi hərf-i əlif) əz Mövlana Nizaməddin Əli ibn Məhəmməd Va'iz Şami, ba-kuşiş Məhəmməd Taqi Daniş-Pəjuh. Məcəllə-i Danişkədə-i ədəbiyyat-i Danişgah.—Tehran, IX/4, 1341 hicri şəmsi/1962, s. 90—110.

[5] Zəfərnamələrin əlyazma nüsxələri çapları və müxtəlif dillərə tərcümələri üçün bax: Ç.A. Stori, II s. 789—791.

[6] Bax: Nizaməddin Şami. Zafername, farscadan çevirən Necati Lüqal, 2-ci basqı.—Ankara, 1987.

[7] Sahibqıran, Kürqen, Küreqen, Küreqen, Küriqen (kürəkən) — Teymurun ünvanlarıdır.

[8] Sultan Əhməd—Cəlairilər sülaləsindən beşinci hökmdar (1374—1410). 1393-cü illə 1404-cü illər arasında Teymur tərəfindən bir neçə dəfə qovulmuşdur.

[9] Sultaniyə—İraq-i Əcəmdə, Qızıl-Özənə tərəf axan Zəncan çayının suları ilə Tehran istiqamətində itən Əbhər»in sularını bir-birindən ayıran xəttin qərbində, təqribən 15 km məsafədə yerləşən İran şəhəri.

Şəhərin binasının ilxan Arqun xan (1284—1291) qoydu, lakin tikilməsinə 1305-ci ildə xələfi Ulcaytu xan (1304—1316) təkan verib buranı özünə paytaxt etdi. İlxan və vəzirləri Sultaniyəni gözəlləşdirmək işində bir-birilə yarışa girişdilər. Təkcə vəzir Rəşidəddin min evlik bir məhəllə tikdirdi. Şəhərin tikilməsi 1313-cü ildə qurtardı. 1384-cü ildə Teymur Sultaniyəni zəbt etdi. 1395-ci ildən başlayaraq Azərbaycan və İranın valisi olan Teymurun oğlu Miranşah şəhəri və qalasını dağıtdı. XVI əsrdə şəhərdə bir neçə abidələrin qalıqlarından bir şey qalmamışdır.

[10] Suyurqal (soyurqal)—imtiyaz vərəqəsi (fərmanı).

[11] Foma Metsopski (Teymurləngin Tarixi, Bakı, 1957, s. 11, 56, 57) bu barədə yazır: «Sultaniyə şəhərinin işxanı Adil lə'l-cəvahiratla və padşaha layiq hədiyyələrlə Teymurləngin qarşısına çıxaraq onunla sülh bağladı. Dediyimiz Adil Teymurləngi Təbriz şəhərinə müşayiət etmiş və şəhəri ona təslim etmişdi. Lakin sonra o, öz qoşunu ilə gizli məsləhət edərək Teymurləngi şəhər hamamında öldürmək fikrinə düşdü. Kimsə onun məqsədini bilib gizlicə Teymurləngin yanına gəlmiş və Adilin sui-qəsdini ona xəbər vermişdi. Bu işdən xəbərdar olmuş Teymurləng Adilin dalınca adam göndərmiş və od qalanmasını əmr etmişdi. Sonra Adili mis qazana qoyub Əmirin və bütün camaatın qarşısında qaynatmışdılar. O, bu cür öldürülmüşdür».

[12] Teymurun nəticəsidir.

[13] Rustamdar—Mazandaran vilayətinin bir bölgəsidir. Ərazisindən Şahrud çayı keçir.

[14] Buranı Çingiz xanın qardaşı nəslindən olan Tuğa-Teymur idarə edirdi. 1353-cü ildə Tuğa-Teymur sərbədarlar tərəfindən öldürülmüşdü və onun torpaqları (Curcan, Mazandaran və Xorasanın bir hissəsi) Vəli adlı əmirinin əlinə düşdü. Teymur 1384-cü ildə Vəliyə qalib gəldi. Tuğa-Teymur isə ondan qaçanda öldürüldü.

[15] Amol və Sari Mazandaranın şəhərləridir.

[16] Seyyid Kəmaləddin və Seyyid Raziəddin həzrət Əli oğlu Hüseynin nəslindən idilər. Mazandaranın sahibi olan Qavaməddin əl-Mər'əşi öləndən sonra (1379-cu ildə) onun torpaqları həmin iki oğullarının arasında bölüşdürüldü. Teymur onları Türküstana apardı.

[17] Ağsaray—Daşkəndin yaxınlığında idi,

[18] Qiyasəddin Toxtamış (Toktamış) 1379—1397-ci illər arasında Dəşt-i Qıpçaqda hökm sürən məşhur Altun Ordu xanı olub. 1380-ci ildə rusları Kalka çayının kənarında məğlub etdikdən sonra böyük bir qüdrətə sahib olan Toxtamış Xarəzm və Azərbaycanı da zəbt etmək fikrinə düşdü. Teymurun Səmərqəndə qayıtmasından istifadə edib Toxtamış 1385-ci ilin qışında Dərbəndi keçərək doqquz tümən (90 min) əsgər ilə Təbriz üzərinə yürüdü. Təbriz şəhəri özünü müdafiə etmək məcburiyyətinə düşdü. Bir həftə mühasirədən sonra 250 min tümən (2,5 milyon) qızılı verib şəhər özünü düşməndən xilas etdi. Lakin Toxtamış sazişi pozaraq ordusunu şəhərə soxdu və başdan-başa təxribata uğradıb qarət etdirdi. Bu 1385-ci ilin martında oldu. Toxtamışın Azərbaycanda girişdiyi vəhşilik hərəkətləri xalqı öz əleyhinə çevirməkdən başqa bir nəticə verməmişdi. Bu vaxta qədər ona hamilik edən Teymuru da özünə düşmən etdi. Toxtamış 1406-cı ildə vəfat etdi.

[19] Sürməri (Sürməlü)—müasir İqdır (Türkiyədə).

[20] Gürcü çarı V Baqrat (1360—1395).

[21] Bu yer müəyyən olunmadı.

[22] Bəlkə Ağcab—Ağcabədidir?

[23] Qaytaq Dağıstandadır.
[24] Xunzax qalası?
[25] Cizyə vergisini müsəlman olmayanlar verirdi.
[26] Gürcü salnaməçisi David Baqrationi (İstoriya Qruzii.— Tbilisi, 1917, s. 129) bu hadisələr haqqında yazır: «Bu qədər tamahkar və amansız olan fatehdən qorxan çar Baqrat Tiflis qalasında möhkəmləndi. Teymurləng Tiflisə hücum edərək bu şəhəri maneəsiz aldı, qalanı isə mühasirədə olanların müqavimətindən sonra zəbt etdi. Çar Baqratı və onun arvadını əsir aldı. Yolda o, çar Baqrata islamı qəbul etməyi təklif etdi və bəxti qara çar müqavimət göstərmədi. Teymurləng dinini dəyişdirən Baqrata çarlığını qaytardı və onu Gürcüstana qayıdanda müşayiət etməyə on iki min əsgər qoşdu. Öz mülkünə qayıdan çar Baqrat dağlarda gizlənən oğlu Georgiyə xəbər verdi ki, gizlincə müsəlmanlara hücum etsin. Georki onun əmrini yerinə yetirdi və onunla Borçalıda birləşib Teymurləngin göndərdiyi əsgərləri məhv etdi».

Hindistandan qayıdan Teymurləng gürcü çarı Baqratın əsgərlərini məğlub və bütün ölkəsini başdan-başa talan etdi.

Foma Metsopski (s. 58—59) bu barədə yazır: «İberiyanın çarı yəhudi qəbiləsindən olan Baqrat idi. O, böyük hədiyyə ilə gəlib Teymura tabe oldu. O da Baqratı dinini dəyişməyə məcbur etdi. İblis qərəzliyilə dolu olan o, Baqratı dinindən döndərib özü ilə Qarabağa apardı. Orada çar onu aldadaraq dedi: «Mənə böyük bir ordu ver, onunla mən gedib bütün ölkəni azad edərəm və sonra əhalini bizim dini qəbul etməyə məcbur edərəm. O qəbilə səkkiz tayfadan ibarətdir, mən də onları sənin dininə döndərərəm. Bunlar osetinlər, imeretlər, menqrellər, abxazlar, svanlar, iberlər və mesxlərdir». Teymur sevindi, Baqratın əyninə fəxri paltar geydirdi, ona hörmət göstərdi və böyük ordu verdi. Bu əsgərlərlə Baqrat İberlər ölkəsinə gəldi. Öz oğullarına gizli xəbər verdi ki, onlar onun yanına gəlsinlər və yolları kəsib Teymurun ordusunun qabağını alsınlar. Bunu edərək, Baqratın oğulları hücuma keçib Teymurun on iki mindən artıq əsgərini qırıb atlarını götürüb getdilər».
[27] Söhbət Şirvanşah Şeyx I İbrahimdən gedir (1382—1417). O, Teymurun qərargahına böyük hədiyyələrlə gəlib, Teymurla Toxtamışın arasında olan düşmənçilikdən istifadə edib Şirvanın daxili müstəqilliyini saxlaya bildi. Teymurun tələbi ilə Şirvan ordusu Toxtamış və Osmanlı sultanı I Bəyazidin (1389—1402) əleyhinə yürüşlərdə iştirak edib.
[28] Bu zaman Gilan hökmdarı Əfzüldəddövlə Qubad ibn Şah Qazi idi (1378—1398).
[29] Teymurun əmirlərindən biri.
[30] Toxtamışın Azərbaycana bu yürüşü hicri 788-ci ildə oldu (1386).
[31] Teymurun oğlu Cəlaləddin Əmiranşah (Miranşah) 1403—1407-ci illərdə Azərbaycanın və İraqın valisi idi. 1407-ci ildə vəfat edib.
[32] Teymurun oğlu Şahrux Bahadur 1404-cü ildən Xorasan, Mazandaran, Sicistanda və 1414-cü ildən İsfahan və Şirazda vali olub, 1446-cı ildə vəfat edib.
[33] Nilan (və ya Leylan) Marağa vilayətinə daxil olan kiçik şəhərdir. Əhalisi sünni türklərdir (hənəfilər).
[34] Yer müəyyən olunmadı.
[35] Seyyid Əli Şəki vilayətinin hakimi idi. Bax: Şəki xanlığının tarixindən.—Bakı, 1958.
[36] Xəzər dənizinin yaxınlığında (Salyan tərəfdə) yaşayış məntəqəsi idi. İlxan Qazan xanın (1295—1304) vaxtında bina olunmuşdur.
[37] Teymurləngin arvadıdır.
[38] Şərəfəddin Əli Yezdiyə görə (Zəfər-namə,—Tehran, 1336, I s. 522—527), elçi Toxtamış xanın qərargahına gələrək Teymurun məktubunu ona verdi. Toxtamışın cavabı, onun əmirlərinin təsiriylə sərt və ağır olmuşdu. Teymur elçidən vəziyyəti öyrəndikdə böyük bir ordu ilə hərəkətə keçdi.
[39] Fərsah—6—7 km-dir.
[40] Tarki şəhəri Mahaçqalanın yanındadır.
[41] Kure çayı Terekdən şimal-qərbdədir.
[42] Almak—çeçenlər torpağında şəhər idi. İndi kənddir.
[43] Teymurləngin nəvəsidir.
[44] Şeyx Nurəddin Teymurun ən tanınmış və ən sadiq bəylərindən idi. Sonralar o, Mavərəünnəhrdə Şahruxun və Uluq bəyin hakimiyyətini tanımayaraq öz istiqlaliyyəti haqqında xülyalara qapıldı, lakin Uluq bəyin atabəyi olan Şah Məlikin əmri ilə 1411-ci ildə öldürüldü. Bax: V. Bartold. Uluq bəy və onun zamanı. Əsərləri, II cild, 2 hissə, göstəricilər; Tacəddin əs-Salmani. Tarix-namə.—Bakı: Elm 1991, göstəricilər.
[45] Müəyyən olunmadı.
[46] Allahdad Teymurun görkəmli əmirlərindən idi. Bax: Tacəd-din əs-Salmani, göstəricilər.
[47] Üstüva (Üstü) Xabuşan Ətrək çayının yuxarılarında yerləşən orta əsr şəhəri.
[48] Toxtamışın ordusu 1395-ci il aprelin 14—15-də məğlub oldu.
[49] Urus xan Toxtamışın qardaşı idi.
[50] Bax: B. D. Qrekov, A. Yakubovski. Zolotaya Orda i yeyo padeniye.—M—L, 1950; Bertold Şpuler. Qızıl Orda. Monqollar Rusiyada.— Visbaden, 1965 (alman dilində).

[51] Burağan asların hakimi idi.
[52] Orta əsr Kuli və Tavus qalaları indiki Kabarda torpağında yerləşirdi.
[53] Dağıstanda, Samur çayından şimalda olan mahaldır.
[54] Mübəşşir Bahadur Teymurun seçkin bəylərindən idi. 1410-cü ildə Şeyx Nurəddin (b a x: 44-cü qeydə) tərəfindən öldürülüb.
[55] Uşkuca mahalı Dağıstanın indiki Akumin rayonu ilə eyni ərazidədir.
[56] Nerqes qalası Mərkəzi Dağıstanda idi.
[57] Bu qalalar da Mərkəzi Dağıstanda idi.
[58] Rüstəm Teymurun nəvəsi (Ömər Şeyxin oğlu) idi, Farsla İsfahanı 1404—1407 və 1414-cü illərdə idarə edirdi. 1436-cı ildə vəfat edib.
[59] Ülufə (ələfin cəmidir)—yem, (furaj). Hərbi hissənin və ya rəsmi şəxsin bir yerdə qaldığı zaman onların yem-yeməyini təmin edən yem vergisi.
[60] B a x: 35-ci qeydə.
[61] Gürcü çarı VII Georgidən söhbət gedir (1395—1407).
[62] Yeri və düz adı müəyyən edilmədi.
[63] Svanetiyadakı Mestiya qalasıdır.
[64] Teymur Bağdadı 1401-ci il iyunun 19-da almışdı.
[65] Ucan bir vaxt ilxan Qazan xanın (1295—1304) iqamətgahı olub.
[66] 1401-ci il noyabrın 29-u.
[67] Söhbət Beyləqandan gedir.
[68] Foma Metsopskidə: «yadellilərin Takaltu (Dağaltı?) adlandırdıqları Bardoq dağı» gedir.
[69] Orta əsrlərdə gəz 62—68 sm-ə bərabər idi.
[70] Şah Məlik bir vaxt Uluğbəyin atabəyi idi. 1426-cı ilədək Xorəzmin valisi idi. 1426-cı ildə vəfat edib. Məşhəddə dəfn olunub.
[71] 1404-cü ilə aid olan «Qafqaz xalqları haqqında məlumat»da İoain de Qalonifontibus yazır (Bakı, 1980, s. 23—24): «Onlar (Teymurun orduları) gürcülərin çarını, arvadını və oğullarından biri və bunlarla birlikdə ölkə əhalisindən yüz minə qədəri əsir aldılar. Onların əllərinə çar xəzinəsinin bir hissəsi düşdü və tərkibində ən qiymətli, ən gözəl və dünyada ən şöhrətli incilər var idi. Teymur bu inciləri öz xəzinəsinə qoydu. Bu incilərin arasında iki bir-birinə bacılar kimi oxşar inci var idi. Birisinin adı «Tənha», ikincinin adı isə «Yeganə» idi. Dünyada keyfiyyəcə və böyüklükdə bu iki inciyə bənzər yoxdur».

Bundan başqa Teymurun əlinə gürcü çarının gözəl və qiymətli zirehi düşdü. Bax: İ. Canaşia İstoriya Qruzii, I.—Tbilisi, 1936, s. 292.

[72] Misqal—4,722 qramdır.
[73] Zira' şəri—49,875 sm-dir.
[74] Şərəfə—divar və barıların yuxarısında olan yarımdəyirmi yerlərin üst hissəsi.
[75] 1403-cü il.
[76] Xediv—Osmanlı dövründə türklərin Misirdə olan valisinə verilən ünvandır.
[77] B a x: Tacəddin əs-Salmani. Tarix-namə, s. 67—68.
[78] Əhməd Cəlairinin oğlunun adı Nuruleyn («Göz işığı») idi.
[79] 1403-cü ilin iyul və ya avqustunda İraqın Hillə şəhərinin yaxınlığında Teymurun oğlu ilə Qara Yusifin arasında baş vermiş döyüşdə Qara Yusif qaçıb Dəməşqdə nicat tapdı. Bundan qabaq Teymur tərəfindən məğlub edilən və Qahirəyə qaçan Əhməd Cəlairi də Dəməşqə gəldi. Hər ikisini Məmlüklərin Şamdakı naibi həbs etdi. Qarabağda olan Teymur Misirə göndərdiyi elçiylə həcc karvanlarını soyan və müsəlman məmləkətlərini qarət edən Qara Yusifin dərhal edam edilməsini və Əhməd Cəlairini onun qərargahına göndərilməsini tələb etmişdi. Amma sonra «tacikləşmiş» Əhməd Cəlairiyə toxunmamağa razı olmuşdu.

Qara Yusiflə Sultan Əhməd tam bir il həbsdə qaldılar. Bax: Faruk Sümer. Qara Koyunlular, I cild,—Ankara, 1967, s. 66—67; Yaşar Yüçel. Mutahhartan və Ərzincan əmirliyi.—Ankara. 1983, s. 275-276.

Teymurun 1405-ci ildə ölümündən sonra Sultan Əhməd Cəlairi keçmiş dostu Qara Yusiflə münasibətlərini kəsərək Azərbaycan uğrunda cərəyan edən müharibədə məğlub olub, oğlu Alaüddövlə və başqa övladları ilə əsir düşür və 1410-cu ildə Qara Yusif tərəfindən qətl edilir.

[80] 1403-cü ildə vəfat etmiş Teymurun nəvəsi şahzadə Məhəmməd əmirzadə Əmiranşahın oğlu idi.

**Nizaməddin Şami**
ZƏFƏR-NAMƏ

**Низамеддин Шами**
ЗАФАР-НАМЕ

Rəssamı *V. Ustinov*
Texniki redaktoru *T. Ağayev*
Korrektoru *R. Əliyev*

Yığılmağa verilmiş 04.05.92. Çapa imzalanmış 12.06.92.
Kağız formatı 84X108 $^{1}/_{32}$. Mətbəə kağızı № 2. Şrifti ədəbi qarnitur.
Yüksək çap üsulu. Şərti çap vərəqi 2,1. Rəngli şərti ç/v. 2,1.
Hes.-nəşriyyat vərəqi 2,12. Tirajı 5500. sifariş 228.

«Elm» nəşriyyatı 370143, Bakı-143, M. Əzizbəyov prospekti, 31.
Akademiya şəhərciyi. Əsas bina.
Azərbaycan EA mətbəəsi.
Bakı, M, Əzizbəyov prospekti, 31.